HƏMAS-İSRAİL TOQQUŞMASI VƏ CƏNUBİ QAFQAZ

Yaxın Şərqdə baş verən, iki həftədən artıqdır ki, davam edən faciəvi hadisələrin hansı istiqamətdə inkişaf etməsi İsraillə HƏMAS-ın döyüş meydanındakı nəticələrindən asılı olacaq. Lakin bu nəticəyə gələnə qədər Cənubi Qafqaz sabitlik oxundan bir qədər tərpənə bilər.

SƏHİFƏ 4-də

PROQNOZ BİRRƏQƏMLİDİR, BƏS REALLIQ?

Dünya Bankı Azərbaycanda inflyasiyanın tezliklə birrəqəmli səviyyəyə düşəcəyini proqnozlaşdırır. İnflyasiya aşağı düşürsə, bu, hökumətin iqtisadi alətləri daha çevik istifadə etməsi üçün imkanlar yaradır. Eyni zamanda, büdcədən xərcləmələrin, sosial paketlərin artmasına imkan yarana bilər.

SƏHİFƏ 7-də

ŞÖHRƏTİ TARİX OLAN QUBA ALMASI

Şimal bölgəsində alma yetişdirən kəndlilər narahatdırlar. Regionda 15-16 min hektar damcı suvarma sistemi ilə suvarılan, müasir texnologiya ilə işləyən şirkət bağları mövcuddur. Onların yetişdirdiyi almaların keyfiyyəti, standartı yüksəkdir. Fermerlərin yetişdirdiyi almalara isə tələbat yoxdur.

SƏHİFƏ 14-də

XANKƏNDİDƏ AZƏRBAYCANIN ÜÇRƏNGLİ BAYRAĞI ƏBƏDİ OLARAQ DALĞALANACAQ

MÜSTƏQİLLİK TARİXİMİZİN YENİ SƏHİFƏSİ

Artıq yenilənən, qalib ölkənin vətəndaşlarıyıq. Azərbaycan erməni separatizminin kökünü birdəfəlik kəsdi. Xankəndi, Xocalı, Əsgəran, Ağdərə və Xocavənddə dövlət bayrağımız dalğalanır. Paralel olaraq, Azərbaycan işğaldan azad edilən yaşayış məntəqələrinin sürətli məskunlaşmasını həyata keçirir.

Bəlkə də çoxlarımız yaşadığımız bu tarixi günlərin mahiyyətini lazımınca dərk edə bilmirik. Xankəndində dövlət bayrağını qürurla qaldıran Prezident İlham Əliyevin də dediyi kimi, bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir. Bu qüruru, sevinci bizlərə yaşadan, "qalib Azərbaycan"ın memarı müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

SƏHİFƏ 3-DƏ

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

21 OKTYABR ŞƏNBƏ 2023 | 39 (4141) Qiyməti - 40 qəpik www.kaspi.az

PROBLEM PUL YIĞIMINDA DEYİL, İDARƏETMƏDƏDİR

MTK-lar sakinlərdən, sakinlər də MTK-lardan narazadırlar. MTK pulların ödənilməməsindən şikayətlənir, sakinlər isə toplanan pulların xərclənməməsindən. Artıq yenitikililərdə sakinlərdən yığılan xidmət haqlarının nağdsız qaydada toplanması barədə qanun layihəsi hazırlanıb.

SƏHİFƏ 11-də

FRANSA VƏ ERMƏNİSTAN DÜNYADA ƏN ÇOX MİNA İSTİFADƏ EDƏN ÖLKƏLƏRDİR

FRANSANIN AMANSIZ NEOKOLONİALİZM SİYASƏTİ

Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur.

14 ÖLKƏNİN NÜMAYƏNDƏSİ BAKIDA

Bakıda "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib. Qoşulmama Hərəkatının Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə keçirilən konfransda 14 ölkədən, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərdən, həmçinin Korsikadan olan nümayəndələr iştirak ediblər.

BELƏ ÖLKƏLƏRDƏN BİRİNCİSİ FRANSADIR

Prezident İlham Əliyev müraciətində bildirib ki, Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən, kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır.

SƏHİFƏ 2-DƏ

MESOPOTAMİYANIN QƏLBİNDƏN REPORTAJ

Diyarbəkir şəhəri Sur Mədəniyyət Yolu festivalının 9-cu və ən əhəmiyyətli dayanacaqlarından hesab olunur. Festival bölgənin tarixini və mədəniyyətini əks etdirən bir sıra sərgilər, tarixi məkanlar, muzeylər və digər özəlliklərlə tanış olmaq üçün yaxşı imkan oldu.

SƏHİFƏ 15-də

Fransa hökuməti ölkəyə nəzarəti itirir — Səhifə 6-da



Paşinyan Qarabağ ermənilərinə qarşı — Səhifə 5-də



Pul arxasınca qaçmaq istəmirəm — Səhifə 8-9-da

Standartlar qəbul olundu, qaldı tətbiqi... — Səhifə 12-də



"Barsa" borc girdabında — Səhifə 16-da

FRANSANIN AMANSIZ NEOKOLONİALİZM SİYASƏTİ

Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır. Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakıda "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib. Qoşulmama Hərəkatının Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə keçirilən konfransda 14 ölkədən, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərdən, həmçinin Korsikadan olan nümayəndələr iştirak ediblər. Prezident İlham Əliyev konfrans iştirakçılarına müraciət ünvanlayıb.

HƏRBİ VƏ BƏŞƏRİYYƏT ƏLEYHİNƏ ÇOXSAYLI CİNAYƏTLƏR

Dövlət başçısı bildirib ki, Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır: "Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur".

Fotolar: Sabir Məmmədov/Global Media Group

FRANSA TƏZMİNATLAR ÖDƏMƏLİDİR

Prezident müraciətində qeyd edib ki, XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, altı il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilib. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqları tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir: "Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilmiş, bu səbəbdən ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır fəsadlarını hiss edir".

FRANSA VƏ ERMƏNİSTAN DÜNYADA ƏN ÇOX MİNA İSTİFADƏ EDƏN ÖLKƏLƏRDİR

Prezidentin müraciətində o da qeyd olunub ki, Fransa həm də dünyada ən çox mina istifadə etmiş ölkələrdən biridir. Ancaq Əlcəzair ərazisində beş milyondan artıq mina basdırılıb. Nəticədə Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutur: "Bu siyahıda Fransadan sonra onun yaxın müttəfiqi Ermənistan gəlir. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində basdırdığı minalar nəticəsində təkcə son üç ildə 340-a yaxın azərbaycanlı mina qurbanı olub. Onların arasında mülki şəxslər də var. Bu iki ölkəni bir-birinə belə sıx bağlayan səbəblərdən biri də hər ikisinin mina terroru ilə məşğul olmaq təcrübəsidir".

ZƏNGİN KOLONİALİZM TARİXİ

Prezident bildirib ki, Fransa qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır. Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur. "Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir", - Prezident bildirib.

"FRANSA ƏHALİMİZİ ÖLDÜRÜR"

Konfransda çıxış edən Müstəqil Martinik naminə Ekoloqlar və Demokratlar Hərəkatının nümayəndəsi Klaudet Duhamel bildirib ki, "Fransa əhalimizi öldürür, yerində fransızları məskunlaşdırır". Onun sözlərinə görə, ölkədə bütün iqtisadiyyat fransız müstəmləkəçilərin əlindədir: "Xalqımız ölkəni idarə edə bilmir, ölümcül vəziyyətdədir. Kənd təsərrüfatımız var idi, amma artıq keçmişdə qalıb. Onlar torpaqlarımızı zəhərləyib məhv etdilər. Artıq gəncliyimiz nə edəcəyini bilmir, üfüqdə heç nə görmürlər. Fransadan qorxurlar, çünki sürgün edilirlər".

"BU, AZADLIQ DEYİL"

Korsika təmsilçisi Jean-Marc Rodrigezin sözlərinə görə isə, hazırda müstəmləkəçiliyin ləğvinə, xüsusilə sakit şəkildə aradan qaldırılmasına ehtiyac var: "Torpaqların alınması da, satılması da nifrətə layiqdir. İşğaldan sonra Fransa Korsikaya qadağalar qoyub. Biz öz ənənələrimizi davam etdirə bilmirik. Çünki buna imkan vermirlər".

"BİZ FRANSANIN İNTEQRASİYASINI İSTƏMİRİK"

"Biz Fransanın inteqrasiyasını - assimilyasiya istəmirik". Bunu isə konfransda çıxışı zamanı Kaledoniya Birliyi Partiyasının baş katibinin müavini David Vanabo deyib. O bildirib ki, Bakı Təşəbbüs Qrupu artıq bir sıra təşəbbüslər həyata keçirib: "Məqsəd müstəmləkəçiliyə qarşı mübarizədir. Biz Fransanın inteqrasiyasını - assimilyasiya istəmirik. Bu dövlətin müstəmləkə metodları hələ də davam edir. Bu, uzun illərdir ki, belədir". Natiq qeyd edib ki, siyasi cəhətdən qandallardan azad olmaq lazımdır.

MÜSTƏQİLLİK TARİXİMİZİN YENİ SƏHİFƏSİ

Artıq yenilənən, qalib ölkənin vətəndaşlarıyıq. Azərbaycan erməni separatizminin kökünü birdəfəlik kəsdi. Xankəndi, Xocalı, Əsgəran, Ağdərə və Xocavənddə dövlət bayrağımız dalğalanır. Paralel olaraq, Azərbaycan işğaldan azad edilən yaşayış məntəqələrinin sürətli məskunlaşmasını həyata keçirir.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Uzun illərdən sonra köksümüzdə, yaddaşımızda dərin yaralar buraxan separatizm bəlasının məskəninə çevrilmiş Xankəndi, Xocalı, Əsgəran, Ağdərə, Xocavənd rayonlarında dövlət bayrağımız dalğalanır. Prezident İlham Əliyevin bu rayonlara səfəri zamanı müqəddəs bayrağımızı dalğalandırması sanki əvvəlkilərdən tam fərqli idi. Bu səfər müstəqil dövlətçilik tariximizdə bütöv bir səhifənin bağlanışı, hesabatı, yeni səhifələrin açıldığının xəbərçisi idi. Xankəndidə dövlət bayrağımız qaldırılmaqla bir səhifə bağlanıldı, dövlət başçısının Füzuli səfəri ilə isə, yeni bir səhifə açıldı.

XANKƏNDİDƏ DALĞALANAN AZƏRBAYCAN BAYRAĞI

Bəlkə də çoxlarımız yaşadığımız bu tarixi günlərin mahiyyətini lazımınca dərk edə bilmirik. Xankəndində dövlət bayrağını qürurla qaldıran Prezident İlham Əliyevin də dediyi kimi, bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir.

Bu qüruru, sevinci bizlərə yaşadan, "qalib Azərbaycan"ın memarı müzəffər Ali Baş Komandan İlham Əliyevdir. 20 il ərzində həyata keçirilən siyasətin yalnız bir amalı, məqsədi vardı - işğal faktına son qoyaraq suverenliyimizin tam bərpası. Bu prioritet Xankəndi səfərində Prezident tərəfindən bir daha xüsusi vurğulandı: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək".

Göründüyü kimi, bu gün qalib sərkərdə vaxtilə xalqımıza qarşı etnik təmizləmə siyasətinin başladığı meydanda dalğalanan Azərbaycan bayrağının kölgəsində xalqı qarşısında qürurla, alnıaçıq şəkildə səmimi duyğuları ilə hesabat verir.

TARİXİMİZDƏ ƏBƏDİ OLACAQ QƏLƏBƏ

Dövlət başçısının da vurğuladığı kimi, bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq: "Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Artıq suveren ərazilərimizdə separatçılar yoxdur, minlərlə soydaşımızı qətlə yetirən, soyqırımına məruz qoyan qanunsuz hərbi birləşmələr, terrorçular mövcud deyil. İndi Vətən torpağının hər qarışında qalib Azərbaycan ordusunun əsgərləri xidmət edirlər. Biz müstəqillik tariximizin ən ağrılı, acılı bir səhifəsini bağladıq.

YENİ HƏDƏFLƏR, MƏQSƏDLƏR

İndi üfüqdə yeni hədəflər, məqsədlər var. Bu hədəfləri yenə də Ali Baş Komandan açıqlayır. Bu dəfə illərlə yurd həsrəti çəkməsinə baxmayaraq, böyük sevinc hissi ilə doğma torpaqlarına qayıdan füzulililərlə görüşündə...

Bəli, Azərbaycan bu gün qurur, yaradır, yaşadır. 30 illik işğalın dərin yaralarını sağaldır. Biz bunu işğaldan azad şəhərlərimizin, kəndlərimizin timsalında görürük. Laçının, Şuşanın, Kəlbəcərin, Ağdamın... İndi isə Füzulinin. Dövlət olaraq burada ilk milli şəhərsalma layihəsini icra edirik. Füzuli tamamilə yenidən qurulur. Bu yenilik həm də Azərbaycanın gələcək simasının əksidir. Prezidentin də qeyd etdiyi kimi, bizim bütün şəhərlərimiz Füzuli kimi olacaq. Bu torpaqlarda həyat qaynayacaq. Müəyyən müddətdən sonra Qarabağ Azərbaycan iqtisadiyyatında bir təkanverici qüvvəyə çevriləcək. Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Bu, ən minimal göstəricidir.

"BİZ ONLARIN RUHU QARŞISINDA BAŞ ƏYİRİK"

Bütün bunların fonunda bir həqiqət isə heç bir zaman dəyişməyəcək. Biz xalq olaraq bu tarixi günləri şəhidlərimizə, torpaqlarımızın azadlığı uğrunda canından, qanından keçən vətən övladlarına borcluyuq. Onlar "Torpaq uğrunda ölən varsa, Vətəndir" deyərək bu yolda şəhid oldular. Bu gün qalib ordunun Ali Baş Komandanı müqəddəs amal uğrunda canlarından keçən qəhrəmanlar haqqında kövrələrək danışır: "Bu gün həm sevincli, həm kədərli gündür. Qızımızın göz yaşları da təbii ki, heç vaxt dayanmayacaq. Bunu biz bilməliyik, 10 il keçsə də, 20 il keçsə də. Hamımız göz yaşları tökmüşük və tökürük. Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik".

Artıq yenilənən, qalib ölkənin vətəndaşlarıyıq. Son 100 ildə xalqımızın üzləşdiyi bəlaya son qoyuldu. Prezident İlham Əliyevin də Xankəndidə vurğuladığı kimi, "Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

HƏMAS-İSRAİL TOQQUŞMASI VƏ CƏNUBİ QAFQAZ

Hadisələrin hansı istiqamətdə inkişaf etməsi İsraillə HƏMAS-ın döyüş meydanındakı nəticələrindən asılı olacaq. Lakin bu nəticəyə gələnə qədər Cənubi Qafqaz sabitlik oxundan bir qədər tərpənə bilər.

AQŞİN KƏRİMOV

HƏMAS-la İsrail arasında genişmiqyaslı toqquşmaların regional bağlarda hansı qırılmalar yaradacağı beynəlxalq gündəmdə ağırlıq təşkil edən mövzular sırasında yer almaqdadır.

Çünki Yaxın Şərqdəki eskalasiya ssenarilərinin yenidən səhnəyə çıxması tək İsrail-Fələstin mübahisəsini əhatə etmir. Bu hərbi toqquşma strateji zəkalarda optik illüziya ilə reallıq arasındakı fərqləri aşkar şəkildə üzə çıxarıb, digər regionlardakı barıt çəlləklərini də partlatmağa qadirdir.

Bəlkə də çoxları bu məntiqin üzərindən sükutla keçir, amma çox sadə texniki səbəb var: Yaxın Şərqdəki oyunçularla digər bölgələrdəki oyunçular eynidir. Dəyişən sadəcə regionun coğrafi və geostrateji yerləşməsi ilə əlaqəli davranışlardakı texniki fərqliliklərdir.

YAXIN ŞƏRQDƏKİ İKİ "SƏSSİZ" OYUNÇU

Öncəliklə qeyd etmək yerinə düşər ki, Yaxın Şərqin əsas oyunçuları ABŞ, Böyük Britaniya, Rusiya, İsrail, Türkiyə, Səudiyyə Ərəbistanıdır. Ancaq adıçəkilən dövlətlərin maraqlarının toqquşan və ya birləşən tərəflərindən doğan boşluqlar regionda iki gücü alternativ kimi inkişaf etdirir. Bunun biri Çin, digəri isə Hindistandır.

Özünəməxsus oyunçuluq xarakteri olan bu iki oyunçunun rəqabət dozası bir-birilərinin ayağını çəkən fürsətlər yaratmağa söykənir. Bir-birilə rəqib olan Çin və Hindistan Cənubi Qafqaz orbitinə də daxil olublar, birinci daha geniş maraqlar qurur, ikinci isə regional genişlənməsini Ermənistan faktoru üzərindən həyata keçirir. Çin bu rəqabətdə Hindistandan bir neçə addım öndədir, onun "Bir kəmər, bir yol" beynəlxalq ticari-iqtisadi layihəsinin topdağıtmaz şəbəkə formasını alması Hindistanı alternativlərə baş vurmağa təhrik edir.

İSRAİL-FƏLƏSTİN MÜNAQİŞƏSİ NİYƏ QIZIŞDI?

Hindistanın belə tutumu ABŞ üçün sərfəlidir. Buna görədir ki, İsrail-Fələstin qarşıdurması başlamamışdan öncə G20 sammitində Hindistanı Körfəz ölkələri və Avropa ilə birləşdirəcək dəhlizin Asiya, Yaxın Şərq və Avropa arasında ticarət əlaqələrini (IMEC layihəsi) genişləndirmək üçün mühüm platforma olacağı barədə razılıq əldə edildi. Bu, daha çox ABŞ-Hindistan birgə beyin məhsuludur, məqsəd Çinin yüksələn maraqları önündə baryerlər formalaşdırıb bunu Pekinə qarşı cəbhə xətti kimi qurmaqdır.

Məhz bu layihənin elanından sonra Yaxın Şərqin yenidən qanlı hadisələrə şahidlik etməsi diqqət çəkməyə bilməzdi. Burada versiyanın nüvəsi o məntiqə köklənir ki, toqquşmalar Çinə sərf edir. Bu mənada ki, məlum toqquşmalar ABŞ ilə Hindistanın Çinə qarşı yaratmaq istədiyi bədxassəli şişləri ilkin etapda aradan qaldırır.

Bu, Çin üçün əməli-nəzəri olaraq dönüş nöqtəsinin rüşeymidir, vəziyyətin belə həddi Cənubi Qafqazdakı regional və beynəlxalq oyunçuların məntiqini itiləməyə imkan verir.

AZƏRBAYCAN TƏHDİD KANALLARINDAN BİRİNİ BAĞLADI

Burada diqqətlə vurğu edəcəyimiz nüans hansı oyunçunun hansı supergücün yanında olmasını müəyyən etmək prinsipinə dayanmasıdır.

Bu artıq labirintdir, yeganə strateji müttəfiq Azərbaycanla Türkiyədir, digər əməkdaşlıqlar və sövdələşmələr isə situativ yanaşmaları özündə ehtiva edir. Bu məqam Cənubi Qafqazla əlaqədar oyunçuların paradiqmalarını müəyyən etməkdə hesablama xətaları yarada bilər.

Cənubi Qafqaz regionunda təhdid üçün kanallardan biri bağlanıb, Azərbaycan Qarabağda antiterror tədbirləri həyata keçirərək bölgədə sülh və təhlükəsizliyin strateji aspektlərini təmin etmiş oldu.

Ancaq Cənubi Qafqazda digər təhdid qapıları bağlanmayıb, misal üçün Ermənistan və Gürcüstanla əlaqədar olan niyyətlər qabarıqlaşır.

HƏMAS-İsrail toqquşmaları fonunda Cənubi Qafqazla Yaxın Şərq vahid məkan kimi qavranılır. Diqqətlə izlənilməlidir ki, Rusiya, ABŞ, Çin və Hindistanın açıq və görünməyən rəqabətlərinin arasında Fransa, İran kimi dövlətlər özlərini hansı nöqtəyə yerləşdirmək istəyəcəklər.

Azərbaycan bu nöqtədə Ermənistana sülh sazişini imzalamaq üçün təzyiqlərini artıra bilər, çünki Bakının nəzərindəki regionda digər oyunçuların ambisiyalarına qalıq imkanlar qapadılmalıdır.

Hərçənd ki, İsrail-Fələstin münaqişəsinin geniş miqyaslara sızması aydın şəkildə bir neçə fazanı göstərir.

Birincisi, bu münaqişə Rusiyanın Ukraynada apardığı hərbi kampaniyadan Qərbin diqqətini yayındırır və Moskva postsovet məkanında təsirlərini genişləndirmək imkanlarını şaxələndirən kanallar arayır.

İkincisi, ABŞ Yaxın Şərqdə Çinin böyüyən maraqları qarşısındakı çətinliklərini Cənubi Qafqazla kompensasiya etmək planlarını aktuallaşdırır.

Hadisələrin xronologiyasına diqqət ayırsaq görürük ki, İsrail-Fələstin konfliktinin hərbi fazada davam etməsi İranın Suriya və İraqda aktivliyini artırması ilə nisbi uyğunluq təşkil edir.

Digər bir məqam: bu yaxınlarda Suriya Prezidenti Bəşər Əsəd Çinə səfər etdi. Bu səfərdən sonra, belə demək mümkünsə, Pekinin Suriyaya əli uzandı - Suriya münaqişəsində Çinin oyunçuluq qazanmaq şansı regionda fırtına yaradan amillərdən biridir.

Hadisələrin hansı istiqamətdə inkişaf etməsi İsraillə HƏMAS-ın döyüş meydanındakı nəticələrindən asılı olacaq. Lakin bu nəticəyə gələnə qədər Cənubi Qafqaz sabitlik oxundan bir qədər tərpənə bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Paşinyan Qarabağ ermənilərinə qarşı

Qarabağdan könüllü olaraq Ermənistana köç edən ermənilər ögey münasibətlə üz-üzə qalıblar. Paşinyan hökuməti onları işlə təmin etmir, fəallarının haqqında cinayət işləri açır. Mərkəzi hakimiyyət nə qədər gizlətməyə çalışsa da, bunu ört-basdır edə bilmir. Tərəflər faktiki olaraq bir-birilərini qəbul etmirlər.

F.ABASOĞLU

Qarabağdan könüllü olaraq köçən ermənilər Ermənistan hökuməti üçün yeni ciddi problemə çevrilməkdədirlər. Ümumilikdə Ermənistan ermənilərinin Qarabağ ermənilərinə münasibəti yaxşı deyil. Mərkəzi hakimiyyət, Paşinyan hökuməti nə qədər gizlətməyə çalışsa da, bunu ört-basdır edə bilmir. Tərəflər faktiki olaraq bir-birilərini qəbul etmirlər. Bunun nəticəsidir ki, Qarabağ ermənileri Ermənistanda məskunlaşma, iş tapmaq problemləri ilə yanaşı, dələduzluqla da üzləşirlər.

Ermənistan hökumətinin sözçüsü Nazella Bağdasaryan açıqlamalarında Qarabağdan gedən ermənilərlə bağlı tez-tez müxtəlif rəqəmlər səsləndirərək, onların problemlərinin həll olunduğunu, yerləşdirilməsinin başa çatdığını, hər kəsin işlə təmin olunduğunu qeyd etsə də, real mənzərə tam başqadır.

ERMƏNİSTAN RƏQƏMLƏRLƏ OYNAYIR

Ermənistan hökuməti Qarabağdan köçən ermənilərə birdəfəlik yardım məqsədi ilə 100 min dram ayırdığını bildirib. Bu isə 220 ABŞ dolları deməkdir. Amma büdcədən bu məqsədlə 8 milyard dram ayrılıb. Bu da 80 min nəfərə yardım etmək üçün yetərlidir. Nazella Bağdasaryan isə 100 mindən çox ermənin Qarabağdan Ermənistana köçdüyünü car çəkir. Rəqəmlərin üst-üstə düşməməsi Ermənistan hökumətinin onlarla oynadığından xəbər verir. Bundan əlavə, Qarabağ ermənilərinə ayrılan məbləğ kirayə pulu üçün bəs etmir. Erməni işbazlar fürsətdən istifadə edərək daşınmaz əmlak bazarında qiymətləri 50-70 faiz artırıblar.

PAŞİNYAN DA SEPARATÇILARA YİYƏ DURMUR

Qarabağdan köçən ermənileri işlə təmin etmək barədə baş nazir Nikol Paşinyan hər dəfə hökumətin iclasında fikirlər səsləndirsə də, hələlik ciddi nəticə yoxdur. Ermənistanın elm və təhsil nazirliyi Qarabağ ermənilərinin bəzilərini ucqarlara müəllim kimi göndərsə də, bu günə qədər ciddi şəkildə işlə təmin olunan yoxdur. Bundan əlavə, Qarabağın separatçı rejimində qondarma "hökumət"də təmsil olunanlara da heç bir iş təklif edilməyib.

Birincisi, Ermənistanın bunu etmək üçün yetərli iqtisadi imkanları yoxdur. Müxalifət bunu həm də Paşinyanın ehtiyatlı davranması ilə izah edir. Qarabağı Azərbaycanın ərazisi kimi tanıyan Paşinyan, faktiki olaraq orada bir müddət fəaliyyət göstərmiş rejimin də qondarma olduğunu tanımış olub. İndi bu qurumun "məmurlar"ının Ermənistan hökumətində təmsil edilməsi Azərbaycanı qıcıqlandıra bilər. Bu, həm də faktiki olaraq, Ermənistanın separatizmi dəstəkləməsi kimi də anlaşıla bilər. Bu səbəbdən Paşinyan hökuməti ehtiyatlı davranır, pauzaya üstünlük verir. Ermənistan parlamentində üç çağırış deputat olduqdan sonra Qarabağ separatçılarına qoşulan, qondarma rejimdə Əsgəran meri "vəzifə"sini tutan Alyoşa Qabrielyan da Ermənistanda üzləşdikləri soyuq münasibətdən şikayətlənib. O, Ermənistanda özünü erməni kimi yox, əcnəbi kimi hiss etdiyini bildirib. Bu da Ermənistanda Qarabağ ermənilərinə göstərilən münasibətin hansı səviyyədə olduğunu göstərir.

Foto: Tapdıq Abdullayev/ Global Media Group

SEPARATÇILARA QARŞI CİNAYƏT İŞİ AÇILIR

Separatçıların problemləri bununla da bitmir. Onları Ermənistanda real siyasi təqib də gözləyir. Bunu təsdiq edən nümunələr var. Qarabağdan qaçan bəzi separatçılar haqqında artıq Ermənistanda cinayət işləri açılıb. Bununla bağlı mütəmadi xəbərlər yayılır. Məsələn, Azərbaycanda terrorçu kimi axtarışda olan separatçıların liderlərindən biri olan Vitali Balasanyan artıq Ermənistanın Milli Təhlükəsizlik Xidməti tərəfindən dindirilib. Qondarma qurumun keçmiş "təhlükəsizlik şurasının sədri" Samvel Babayana qarşı da iki maddə ilə cinayət işi açılıb. Görünən odur ki, Paşinyan Ermənistanda yeni Qarabağ müxalifəti və klanının yaranmasına imkan vermək istəmir. Vitali Balasanyan və Samvel Babayan kimi fiqurlar yaxın gələcəkdə təşkilatlanaraq Ermənistan müxalifətini gücləndirə və yeni müxalifət qanadı yarada bilərlər. Bu səbəbdən Paşinyan işini ehtiyatlı tutaraq, haqlarında cinayət işləri açmaqla onları təzyiq altında saxlamaq, obrazlı desək, "ilanın başını əzmək" istəyir. Yəqin ki, yaxın vaxtlarda xüsusilə də nəzarətdən çıxmaq, fərdi qaydada nəsə etmək fikrinə düşənlər haqqında da bu cür davranışların şahidi olacağıq. Onların da haqqında cinayət işi açılacaq və uzunmüddətli həbsə göndəriləcəklər. Hətta bəzi müxalifət nümayəndələri bu şəxslərin həbs olunduqdan sonra Azərbaycana ekstradisiya ediləcəyi təhlükəsinin olması barədə də hay-həşir salırlar.



BƏZİ BLOGER VƏ QHT-LƏRƏ TAPŞIRIQLAR VERİLİB

KİV-lərdə yayılan xəbərə görə, Ermənistan hökuməti nəzarətində olan bəzi bloger və QHT-lərə separatçıları gözdən salmaq, bu barədə ictimai rəy formalaşdırmaq haqqında göstəriş verib. Siyahıya hazırda Bakıda məhkəmə prosesi keçirilən separatçı ermənilər də daxildir.

Ermənistana könüllü köçən Qarabağ ermənileri artıq digər ölkələrə də üz tutmağa başlayıblar. Nikol Paşinyan ötən həftə hökumətin iclasında onlardan 2500 nəfərin Rusiya və digər ölkələrə köçdüyünü etiraf edib. Təbii ki, real rəqəmlər daha başqadır. Nikolun əsl rəqəmləri gizlətməsinin səbəbi həm xaricdən alınan ianələrin azalmamasını təmin etmək, həm də yerli sakinlər arasında köç dalğasının yenidən sürətlənməsinin qarşısını almaqdır.

Fransa hökuməti ölkəyə nəzarəti itirir

Ölkədə təhlükəsizliklə bağlı ciddi problemlər yaşanmağa başlanıb. Xüsusilə də ərəb-yəhudi qarşıdurması ilə bağlı narahatlıqlar var. Mümkün terror aktlarının qarşısını almaq üçün hüquq-mühafizə qüvvələri səfərbər edilib. Ölkədə terror təhlükəsinin ən yüksək səviyyəsi elan olunub.

AZƏR NURİYEV

Yaxın Şərqdə İsraillə HƏMAS arasında yaşanan müharibə tək regionda deyil, min kilometrlərlə kənarda da hiss olunmaqdadır. Müharibənin təsirləri artıq Yaxın Şərqdən Avropaya sıçrayıb. Yəhudi və ərəb miqrantların yaşadığı ölkələrdə gərginlik hiss olunmaqdadır. Miqrantlara qarşı sərt mövqe nümayiş etdirən Fransa da ərəb-yəhudi qarşıdurmasını daxilində hiss etməyə başlayıb.

Əvvəldən proqnoz edilirdi ki, Fransanın başqa ölkələrin, dövlətlərin işinə müdaxiləsi mənfi nəticələrə gətirib çıxaracaq və çıxarır da. Hər bir ölkə öz daxilindəki problemləri həll edib sonra marağında olan xarici məsələlərə yönəlməlidir. Bu, aksiomadır. Lakin Fransa kimi dövlətlər buna məhəl qoymur və bu səbəbdən də problemlərlə üzləşirlər.

İSRAİL-HƏMAS GƏRGİNLİYİ FRANSAYA KEÇİB

Beləliklə, son günlər Fransada təhlükəsizliklə bağlı durum gərginləşib. Rəsmi Paris bu problemlərin əlində aciz qalıb. Miqrantlara qarşı ayrı-seçkilik, hətta onların öldürülməsi kütləvi hal alıb. Bu günlərdə İnquşetiyadan olan 20 yaşlı çeçenin ədəbiyyat müəllimini öldürüb, iki nəfəri yaralaması ölkədə etirazlara səbəb olub. Bu hadisənin də kökündə ərəb-yəhudi münaqişəsinin dayandığı vurğulanır. Artıq Fransanın hakimiyyət orqanları ölkə ərazisində Fələstinə dəstək nümayişlərini qadağan edib. Mümkün terror aktlarının qarşısını almaq üçün hüquq-mühafizə qüvvələri səfərbər edilib. Təhlükəsizliyin təmin edilməsi ilə bağlı tədbirlərə yeddi mindən çox əlavə əsgər cəlb edilib. Ölkədə terror təhlükəsinin ən yüksək səviyyəsi elan olunub. Səs-küylü qətllə bağlı 10-a yaxın adam, o cümlədən terrorçunun ailə üzvləri, qardaşı saxlanılıb. Makron isə yenə "gül vurub". O, baş vermiş hadisəni "islam terroru" adlandırıb.

İSRAİL FRANSADAKI ANTİSEMİTİZM TƏZAHÜRLƏRİNDƏN NARAHATDIR

İsrail hakimiyyəti də Fransada son günlər iğtişaşlar zamanı özünü göstərən antisemit əhval-ruhiyyənin artmasından narahatlığını ifadə edib. "İsrail hökuməti Fransanı bürüyən antisemitizmin təzahürlərini və dalğalarını hədsiz narahatlıqla izləyir. Son günlərdə biz Fransada yəhudi hədəflərinə cinayətkar hücumların şahidi olduq. Biz bu hücumları qətiyyətlə pisləyirik", - deyə Baş nazir Benyamin Netanyahu bildirib. Onu da qeyd edək ki, ədəbiyyat müəlliminin qətlini daha dramatik edən hadisənin baş verdiyi Arras şəhərində müsəlmanların və etnik yəhudilərin yaşadığı böyük yaşayış məntəqələrinin olmasıdır. Təbii ki, fransızlar üç il əvvəl başqa bir gənc çeçen radikalı tərəfindən öldürülən Samuel Patini unutmurlar.

SAĞÇI QÜVVƏLƏR ƏLAVƏ REYTİNQ QAZANIRLAR

O vaxt Paris terror hücumlarının qarşısını almaq üçün çox şey edəcəyini vəd etdi və hətta müsəlmanların xoşuna gəlməyən bir sıra addımlar atdı. Xüsusilə radikal əcnəbi imamlar deportasiya ilə üzləşdilər.



Fransa hüquq-mühafizə orqanlarının əməkdaşları onların moizələrinin məzmununa nəzarət etməyə başladılar. Zirzəmilərdə fəaliyyət göstərən dini məktəblər bağlandı. Amma hər şeyi nəzarətdə saxlamaq da mümkün deyil.

Ümumiyyətlə, son vaxtlar Fransa hüquq-mühafizə orqanları əməkdaşlarının işi kifayət qədərdir. Belə ki, Luvrda bomba təhlükəsi ilə bağlı mesaj alındıqdan sonra üç minə yaxın insan təxliyə edilib. Oxşar hadisəyə görə Versal sarayına gələnlər də çətinliklər yaşayıblar.

Bütün bunlar seçki ərəfəsində sağçı qüvvələrə əlavə reytinq qazandıracaq. İlk növbədə gənc Cordan Bardellanın rəhbərlik etdiyi Milli Qüvvə irəli çıxacaq. Fransa İctimai Rəy İnstitutunun aprel sorğuları göstərmişdi ki, yeni prezident seçkisi olacağı təqdirdə hakimiyyət Bardellaya keçəcək.

MAKRONUN UĞURSUZ SİYASƏTİNİN NƏTİCƏSİ

Sözsüz ki, bütün bu uğursuzluqların əsas səbəbkarı prezident Emmanuel Makron və onun komandasıdır. Mali, Mərkəzi Afrika Respublikası, Burkina-Faso, son vaxtlar isə Niger Fransadan, onun şirkətlərindən və ordusundan imtina edir. Bu ölkələrin ərazilərində anti-Fransa nümayişləri keçirilir. Nigerdəki çevriliş Fransanın Afrika siyasətinin fiaskoya uğradığını bir daha təsdiqləyir. Baş verənlərə əsasən ehtimal etmək olar ki, Fransa Afrikadan növbəti dəfə qovulur. Başqa sözlə, bu qitənin vətəndaşları Fransanın yeni müstəmləkəçilik siyasəti ilə yaşamaq istəmirlər. Fransa Asiyadan da sıxışdırılır. Ərəb ölkələrinin çoxu uzun illərdir əlaqələrdə üstünlüyü ABŞ, Böyük Britaniya, Çin və Türkiyəyə verirlər. Fransanın Livandakı əməlləri onun ərəb dünyasındakı siyasətinin də uğursuzluğunu təsdiqləyir. Vyetnam, Kamboca, Laos kimi keçmiş müstəmləkə əraziləri də Fransadan imtina ediblər. Bu ölkələr də ABŞ, Avstraliya, Çin və Yaponiya ilə əməkdaşlığa üstünlük verirlər.

BƏS FRANSA NİYƏ UĞURSUZLUĞA DÜÇAR OLUR?

Bəs Fransa niyə uğursuzluğa düçar olur? İlk növbədə, bu ölkə keçmiş müstəmləkə ölkələrinə münasibətini dəyişə bilmir. Hələ də onları qul, özünü quldar görür. Fransanın xarici siyasətində dini ayrı-seçkilik aparıcı ideologiyaya çevrilib. Ölkə daxilində belə, insanlar dərilərinin rənglərinə görə ayrı-seçkiliyə məruz qalırlar. Ultra-sağçıların, millətçilərin toparlanması əlamətlərini görmək olur. 17 yaşlı əlcəzairli gənci güllələmiş polisi müdafiə edənlər də az deyil. Onun müdafiəsi üçün qurulmuş yardım fonduna qısa zamanda 1 milyon avro vəsait yığılıb. Bu, qorxuludur. Antimiqrant ruhunun artması Marin Le Pen, Erik Zimmer və Valeri Pekres kimi sağçı populist liderlərin dəyirmanına su tökür. Bütün bunlar da Fransada iç harmoniya və sabitlik üçün təhlükə yaradır, ölkənin sonunu yaxınlaşdırır.

PROQNOZ BİRRƏQƏMLİDİR, BƏS REALLIQ?

Dünya Bankı Azərbaycanda inflyasiyanın tezliklə birrəqəmli səviyyəyə düşəcəyini proqnozlaşdırır. İnflyasiya aşağı düşürsə, bu, hökumətin iqtisadi alətləri daha çevik və səmərəli şəkildə istifadə etməsi üçün imkanlar yaradır. Eyni zamanda, büdcədən xərcləmələrin, sosial paketlərin artmasına imkan yarana bilər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda inflyasiya göstəricisi bu il 9 faiz, 2024-cü ildə isə 5,8 faiz səviyyəsində gözlənilir. Bu barədə Dünya Bankının "Regional Economic Outlook" hesabatında bildirilib. Bankın yaz proqnozlarına nisbətən bu gözləntilər 2023-cü ildə 0,5 faiz artıb, 2024-cu ildə isə 0,4 faiz azalıb. Sənədə əsasən, 2025-ci ildə Azərbaycanda inflyasiyanın 5,2 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Bu, ötən proqnozdan 0,2 bənd azdır. Dünya Bankı qiymətlərin stabilləşəcəyini proqnoz edir, bəs əslində reallıq necədir?



HƏM DÜNYADA, HƏM DƏ REGİONDA İNFLYASİYA SƏVİYYƏSİ AZALIR

Millət vəkili Vüqar Bayramov deyir ki, proqnozlar hökumətimizin təqdim etdiyi rəqəmlər əsasında tərtib edilib: "Həm Dünya Bankının, həm də Azərbaycan hökumətinin proqnozlarına görə, 2024-cü ildə inflyasiya səviyyəsi əvvəlki illərlə müqayisədə azalacaq. Bu həm də onunla bağlıdır ki, 2022-ci ildəki yüksək inflyasiya artımından sonra 2023-cü ildə həm dünyada, həm də regionda inflyasiya səviyyəsinin azalmasını müşahidə edirik. Dünya Bankının proqnozları onların xüsusi metodologiyası əsasında, eləcə də Azərbaycan hökumətinin proqnozları nəzərə alınmaqla hazırlanıb. Ona görə proqnozlar müəyyən uyğunluq təşkil edir".

Deputatın fikrincə, inflyasiya azalarsa, bu, istehlak bazarına da öz təsirini göstərəcək: "Hazırda rəsmi statistikaya əsasən, 11 faizlik qiymət artımları müşahidə olunur. Amma 2024-cü ildə birrəqəmli inflyasiyanın əldə edilməsi imkanları kifayət qədər böyükdür. Çünki gələn il regionda və dünya bazarında inflyasiya səviyyəsinin azalması və idxal inflyasiyasının minimumlaşması gözlənilir. Nəticə etibarilə idxal inflyasiyasının azalması, həm də istehlak bazarındakı qiymətlərə təsir göstərəcək. İstehlak bazarında bu kontekstdən qiymətlərin müqayisəli şəkildə azalmasını müşahidə edəcəyik".

2024-CÜ İL SABİT OLACAQ

V.Bayramov bildirir ki, 2024-cü il daha nikbin proqnozlarla yadda qalacaq: "Bizim proqnozlar da növbəti ildə inflyasiya səviyyəsinin səngiyəcəyi üzərindədir. Burada regional dəyişikliklərin də təsiri var. Bütün hallarda idxal inflyasiyasının hansı səviyyədə olması proqnozlara birbaşa təsir göstərəcək. Ümumilikdə, 2024-cü illə bağlı proqnozlar pozitivdir. Gələn il iqtisadiyyatla bağlı nikbin proqnozların olması bu istiqamətdə gözləntiləri daha da yüksəldir. Proqnozlara əsasən, 2024-cü il bütövlükdə iqtisadi baxımdan sabit il kimi yadda qalacaq".

Müsahibimiz qeyd edir ki, rəqəmlərin sabitləşməsi həm vətəndaşlarımıza, həm də iqtisadiyyatımıza faydalıdır: "İnsanlarımız üçün qiymətlərin optimallaşdırılması, daha aşağı inflyasiya səviyyəsi çox vacibdir. Çünki qiymətlər nə qədər aşağı olarsa, bu, vətəndaşlarımızın ailə büdcəsinə müsbət təsir edəcək və xərclərinin azalmasına gətirib çıxaracaq".

Vüqar Bayramov

İNFLYASİYANI ŞƏRTLƏNDİRƏN FAKTORLAR QİSMƏN NEYTRALLAŞDIRILIR

İqtisadçı Rəşad Həsənov isə bildirir ki, inflyasiyanın səngiyəcəyi gözlənilən idi: "Trend azalan istiqamətlidir. Çünki inflyasiyanı şərtləndirən bir sıra faktorlar artıq görülən tədbirlər nəticəsində qismən də olsa neytrallaşır. Eyni zamanda, burada baza effekti deyilən yanaşma var. İnflyasiya davamlı olaraq yüksələn səviyyədə özünü göstərə bilmir. Bir müddətdən sonra inflyasiya alıcılıq gücünün zəifləməsinin təsirləri ilə müəyyən bir məcraya yönəldilir. Bu istiqamətdə Azərbaycan hökuməti də humanitar alətlər vasitəsilə müəyyən tədbirlər görür. Bu baxımdan, bu il inflyasiya 2022-ci illə müqayisədə daha aşağı olacaq".

Rəşad Həsənov

R.Həsənovun proqnozları inflyasiyanın ikirəqəmli olması istiqamətindədir: "İnflyasiyanın təxminən 10-11 faiz arasında olacağını düşünürəm. Amma Mərkəzi Bankın, Dünya Bankının gözləntiləri daha aşağıdır. İndiki halda tam dəqiq olaraq hansı rəqəmlərin reallaşacağını demək çətindir. Çünki görünən ondan ibarətdir ki, əgər inflyasiya birrəqəmli olacaqsa, növbəti bir neçə ayda ölkədə deflyasiya qeydə alınmalıdır. Amma noyabr və oktyabr aylarında qiymətlərin artımı tendensiyası daha çox müşahidə olunur. Belə olduğu təqdirdə həmin aylarda deflyasiyanın qeydə alınması ehtimalı çox azdır. Bu səbəbdən, mən prosesi ikirəqəmli görürəm".

HÖKUMƏT DAHA SƏRT TƏDBİRLƏR GÖRMƏLİ OLUR

Ekspert qeyd edir ki, insanların rifah səviyyəsinin yüksəlməsi üçün qiymətlər azalmalıdır: "İnflyasiya aşağı düşürsə, bu, hökumətin iqtisadi alətləri daha çevik və səmərəli şəkildə istifadə etməsi üçün imkanlar yaradır. Eyni zamanda, büdcədən xərcləmələrin, sosial paketlərin artmasına imkan yarana bilər. Bu zaman Mərkəzi Bank pul bazasını genişləndirəcək. Bütün bunların fonunda alıcılıq gücü artır və rifah yaxşıya doğru dəyişir. Bunlar bir-biri ilə tərs mütənasibdir. Çünki inflyasiya yüksək olanda hökumət məcburən daha sərt tədbirlər görməli olur. Bu tədbirlərin də nəticəsi əhalinin rifahının zəifləməsi istiqamətindədir. Amma inflyasiya azalarsa, bu, pozitiv meylli imkanlar yaradacaq".

21 YAŞINDA TƏQAÜDLƏ PHD TƏHSİLİ QAZANAN AZƏRBAYCANLI TƏLƏBƏ

PUL ARXASINCA QAÇMAQ İSTƏMİRƏM



Fotolar: Əhməd Hətəmzadə/Global Media Group

Lamiyə Rəhimova: "Gecə-gündüz oxuyurdum. Düşünürəm ki, 18 yaşından sonra insan asılı olmamalı, öz ayaqları üzərində durmalıdır. Siz bu zaman qazandıqlarınızdan həzz ala bilərsiniz".

21 yaşı var. Bakalavr pilləsindən birbaşa doktoranturaya tam təqaüdlə qəbul olub. Qazandığı təqaüdün ümumi məbləği isə 136 550 ABŞ dollarıdır. Deyir ki, insanın həyatında 20-30 yaş arasında əhəmiyyətli dəyişikliklər olur. Ən müsbət dəyişiklik isə təhsillə başlayır. Ona görə də bu yaşında beynini ancaq təhsilə xərcləmək fikrindədir. Müsahibimiz Sinqapur Milli Universitetinə doktorantura səviyyəsi üzrə tam təqaüdlə qəbul olan Lamiyə Rəhimovadır.

630 BAL, 94,71 MÜVƏFFƏQİYYƏT GÖSTƏRİCİSİ

Mehdiabadda doğulub, böyüyüb. Orta məktəbi bitirdikdən sonra Bakı Mühəndislik Universitetinin memarlıq və inşaat fakültəsinin kimya mühəndisliyi ixtisasına 630 balla daxil olub. Universiteti 94.71 ortalama müvəffəqiyyət göstəricisi və fərqlənmə diplomu ilə bitirib. Həmsöhbətimiz bakalavr səviyyəsindən birbaşa doktorantura səviyyəsi üzrə Sinqapur Milli Universitetinə qəbul olub və tam təqaüd qazanıb. O, bir il bu ölkədə tədqiqat mühəndisi vəzifəsində işlədikdən sonra PhD təhsilinə başlayacaq.

Lamiyə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın iştirakçısı seçilib və Edinburq Universitetinə də qəbul olub. O, həmçinin Bakıda fəaliyyət göstərən məşhur beynəlxalq şirkətlərdən birindən də iş təklifi alıb. Lakin hər ikisindən imtina edib və Sinqapura yollanıb.

"KİMYA MÜHƏNDİSİ KİMİ FAYDALI OLA BİLƏCƏYİMİ DÜŞÜNDÜM"

● Lamiyə xanım, şagirdlərin əksəriyyəti kimya fənnini sevmir. Orta məktəbdə siz də bu sırada olmusunuz. Bəs necə oldu ki, peşənizi bu fənnə uyğun seçdiniz?

● Bəli, kimya mənə də çox çətin gələn, bu səbəbdən də heç sevmədiyim fənn idi. Hətta 9-cu sinifdə summativ qiymətləndirmədə kimyadan "3" almışdım. İmtahan nəticələrimə görə məktəb üzrə 1-ci yerə çıxdığım üçün, müəllim mənə güzəşt edərək "4" yazdı. Amma nədənsə, kimyanı sevə biləcəyimi düşünürdüm. Buna görə də repetitor yanına getdim. Hisslərim məni yanıltmadı. Bu fənni mənə sevdirən hazırlıq müəllimim olub. Təsəvvür edin, 10-cu sinfə qədər kimyanı sevməyən bir tələbə 11-ci sinfin sonunda - imtahanda bütün sualları düz yazmışdı. Bu sahə həqiqətən maraqlıdır. Riyaziyyatı, fizikanı əvvəldən sevirdim. Məktəbdə fizika olimpiadalarında 3-cülüyüm də var. Bir tərəfdə fizika, riyaziyyat, digər tərəfdə kimya, bunları birləşdirdim və kimya mühəndisliyi ixtisasını seçdim.

● Bu fənləri sevən xanımlar adətən həkimliyi seçir. Ailəniz sizi həkim kimi görmək istəyibmi?

● Anam və xalam tibb sektorunda işləyir. Amma həkim olmağımı qətiyyən istəməyiblər, məni də daim bu fikirdən daşındırmağa çalışıblar. Anam həmişə deyirdi ki, həkimlik stressli, əziyyətli işdir, istəmərəm qızım həkim olsun. Çünki həkimlər 24 saat xəstələrini düşünür, onların ölümü, ağır xəstəliyi ilə kədərlənirlər. Hazırlaşdığım qrupda yüksək bal toplayan tələbələr daha çox informasiya texnologiyaları (İT) sahələrinə üz tutdular. Mən isə kimya mühəndisi olaraq ölkəmə faydalı ola biləcəyimi düşündüm.

> *Suallarıma istədiyim cavabı aldıqdan, öyrəndikdən sonra öz universitetlərimizdə bu sahədə dərs keçmək ən böyük xəyallarımdan biridir. Oxuyub qayıtdıqdan sonra ilk işim öyrəndiklərimi öyrətməkdir. Burada maddi heç nə güdmürəm.*

"BİR İLLİK TƏHSİL MƏNƏ KİFAYƏT ETMƏZ"

● 10-cu sinifdən kimyanı kəşf etmisiniz. Sizcə, bu fənni nə üçün sevməliyik?

● Kimya çətin fəndir, bunu indi də danmıram. Amma çətinliklə bərabər, çox maraqlıdır. Belə bir deyim var idi, kimya ətrafımızda və içimizdədir. Şagirdlər bunu dərk etsə, kəşf etməyə çalışsalar, sevəcəklər. Həqiqətən çətindir, amma hər şagirdin anlayacağı dil var. Məsələn, fənnə başlayan kimi "Mendeleyev cədvəli"nin mənasını dərk etmədən əzbərlətdirirlər. Amma elementlərin sıralamasını animasiyalarla, oyunlarla izah etsəniz mümkün deyil ki, hansısa şagird sevməsin. Bu, sırf müəllimin metodikasından asılıdır. Kimya gündəlik həyatımızda və təcrübədə tətbiq olunan elmlərdən ən vacibi və birincisidir.

● Sinqapurdan öncə Edinburq Universitetinə dövlət proqramı ilə qəbul olmağınıza baxmayaraq, imtina etmisiniz. Nə üçün?

● Son kursdan etibarən xaricdə təhsil almaq üçün araşdırmalar edirdim. Tək Edinburq deyil, London və Mançesterdən də qəbulum var idi. Universitetləri seçəndə, onların hansı sahədə ixtisaslaşmasına çox əhəmiyyət verirdim. Hansı sahələrdə boşluğum varsa, o sahələr üzrə ixtisaslaşan universitetləri seçir, bu ideologiya ilə irəliləyirdim. Edinburqun dünya üzrə reytinqi 15-dir. Edinburqdan qəbul alanda, beynəlxalq şirkətdə də təcrübə qazanmışdım və işləyirdim. Atama dedim ki, mən indi seçim etməyəcəyəm və Dövlət Proqramından imtina edəcəyəm. Düzdür, Edinburq çox yaxşı şans idi, amma təhsil bir illik idi. Düşündüm ki, bir il mənə kifayət etməz.

"QAYITDIQDAN SONRA İLK İŞİM ÖYRƏNDİKLƏRİMİ ÖYRƏTMƏKDİR"

● Bəs necə oldu ki, təhsil üçün Sinqapura müraciət etdiniz?

● Sinqapur Milli Universiteti həmişə ağlımda idi. Lakin oraya qəbul olmaq çox çətin idi. Ən əsası, "Graduate Record Examination" (GRE) sertifikatı lazım idi. GRE dünyanın müxtəlif TOP universitetlərinə qəbul olmaq üçün tələb edilən və qəbul imtahanı əhəmiyyəti daşıyan, tələbənin şifahi və kəmiyyət əsaslı düşünmə, analitik yazı bacarığı qabiliyyətlərini qiymətləndirmək üçün nəzərdə tutulan imtahan növüdür. Mən bu sertifikatı gec aldığım üçün müraciət edə bilməmişdim. Bir gün müəllimim mənə yazdı ki, nəticələrinlə ABŞ universitetlərindən qəbul ala bilərsən. Razılaşmadım. Çünki ABŞ xəyallarımdakı ölkə deyildi. Müəllimimin köməkliyi ilə Sinqapurda doktorantura üçün təqaüdə müraciət etdim. 2023-2024-cü təhsil ili üçün qəbul aldım. Vaxt itirməmək üçün növbəti təhsil ili başlayana qədər bir il o universitetdə işləməyi təklif etdim. Xoşbəxtlikdən razılıq da aldım.

● Hansı sahələrdə boşluğunuz varsa, ona uyğun universitetləri seçdiyinizi bildirdiniz. Maraqlıdır, Sinqapur Universitetində hansı boşluğunuzu doldurmağı hədəfləmisiniz?

● Buradakı mövzum nanotexnologiya və enerjinin yığılmasıdır. Dərsimin adı da "Bərpa olunan enerji"dir. Azərbaycanda o fənn istənilən səviyyədə keçirilmir. Ümumiyyətlə, bu sahədə ixtisaslaşan müəllimlər də çox azdır. Bizə sual verilində ki, bərpa olunan enerji nədir? Standart olaraq, günəşdən, küləkdən danışırıq. Amma günəşdən və küləkdən necə enerji almaq barədə tələbələrin fikirləri dərin deyil. Bununla bağlı suallarıma istədiyim cavabı aldıqdan, öyrəndikdən sonra öz universitetlərimizdə bu sahədə dərs keçmək ən böyük xəyallarımdan biridir. Oxuyub qayıtdıqdan sonra ilk işim öyrəndiklərimi öyrətməkdir. Burada maddi heç nə güdmürəm. Sadəcə, bu sahəni sevdirmək istəyirəm.

"YA BİR GÜN BİTƏCƏK, YA DA BİTƏNƏ YAXIN BAHALAŞACAQ"

● Ölkəmizdə bu sahə ilə bağlı sizi narahat edən ən vacib nüans hansıdır? Sizin kimya mühəndisi olaraq gələcək planlarınız nədir?

● Universitetə daxil olanda "Kimya mühəndisi olaraq nə edəcəksən" sualını versəydiniz, heç bir fikrim yox idi. Sadəcə bilirdim ki, neft-qaz sektorunda işləyəcəyəm.

> *Ətrafımda qızlarının qarşısını kəsən, baryerlər qoyan valideynlər çoxdur. Hətta "qız uşağının tək xaricdə nə işi var, kimlə oturub duracaqsan" kimi fikirlər də səsləndirilir. Mən bu baxımdan çox şanslıyam ki, ailəm tərəfindən daim fikirlərimə hörmət edilib və dəstəklənmişəm.*



21 yaşı var. Bakalavr pilləsindən birbaşa doktoranturaya tam təqaüdlə qəbul olub. Qazandığı təqaüdün ümumi məbləği isə 136 550 ABŞ dollarıdır.

3-cü kursdan sonra artıq dərk etməyə başladım. Bərpa olunan enerjini ölkəmizdə inkişaf etdirmək istəyərdim. Çünki Azərbaycandakı enerji növləri neft və qazın üzərində qurulub. Neft, qaz tükənəndir. Neft-qazdan yararlanan başqa ölkələr də var. Lakin bununla yanaşı, "enerjini əlavə olaraq haradan ala bilərəm" sualı ətrafında ciddi düşünən, ortaya iş qoyan ölkələr də az deyil. Bu istiqamətdə bizdə də müəyyən işlər görülür. Mən də təcrübəmlə dəstək olmaq, inkişaf etdirmək, ölkəmə bu sahədə faydalı olmaq istəyərəm.

"21 YAŞINDA DOKTORANT OLMAQ İMKANSIZI BACARMAQDIR"

● Lamiyə xanım, Edinburq və işlədiyiniz beynəlxalq şirkətdən imtina etməklə risk etdiyinizi vurğulayırsınız. Sizcə, bu riskə dəyərdi?

● Bəli, burada işləmək məni maddi cəhətdən çox yaxşı təmin edə bilərdi. Şirkət qlobal idi və xaricə çıxmaq imkanım var idi. Amma hələ 21 yaşım var və pul arxasınca qaçmaq istəmirəm. Fikirləşirəm ki, bu beyni hələ istifadə edə bilərəm. Bir də mən dəhşətli dərəcədə oxumağı sevən, dərs oxuyan insanam. Hər gün gecə saat 4-də oyanıb, dərslərimi edirdim. İş gözləyər, hələ ki, təhsil almalıyam. Düşünürəm ki, 10-20 yaş arasında insan həyatında çox şey dəyişmir, ən böyük uğurun universitetə daxil olmaqdır. Amma 20-30 yaş arasında insan çox böyük addımlar atır. Bu il dövlət proqramını qazandımsa, gələn il də qazana bilərdim. Amma Sinqapur mənim şansımdır. Mənim üçün magistratura təhsili almaq da hər vaxt mümkündür. Amma 21 yaşda doktorant olmaq imkansızı bacarmaqdır. Düşünürəm ki, o universitetin doktoranturasını bitirən şəxs üçün hər yerdə yaşıl işıqdır. Birincisi, Sinqapur Universitetinin reytinqi yaxşıdır, ikincisi, doktorantura üstünlükdür, üçüncüsü və ən önəmlisi nanotexnologiyalar və enerji məsələsidir. Bərpa olunan enerji yeni sahədir. İtirdiklərim qarşısında qazandıqlarıma baxdıqda, əlbəttə, buna dəyərdi.

"QIZ UŞAĞININ TƏK XARİCDƏ NƏ İŞİ VAR..."

● Sinqapur məsafə baxımından bizə çox uzaqdır. Ailəniz uzaq ellərə getməyinizi necə qarşılayır?

● Əslində, məktəbdə oxuyandan xaricdə təhsil almağı planlaşdırırdım. Amma atam narahat olur, getməyimi istəmirdi. Mən İELTS və GRE sertifikatlarını almaq üçün hazırlaşanda, valideynlərim də gördülər ki, çox əziyyət çəkirəm, təhsilə sözün əsl mənasında canımı qoyuram. Bu əziyyətimin qarşısında onlar da mənə tam dəstək verdilər. Ətrafımda qızlarının qarşısını kəsən, baryerlər qoyan valideynlər çoxdur. Hətta "qız uşağının tək xaricdə nə işi var, kimlə oturub duracaqsan" kimi fikirlər də səsləndirilir. Mən bu baxımdan çox şanslıyam ki, ailəm tərəfindən daim fikirlərimə hörmət edilib və dəstəklənmişəm.

"ÇƏTİNLİYİ, ZƏHMƏTİ, ƏMƏYİ SEVİRƏM"

● Ailənizin sizi istədiyiniz universitetə göndərə biləcək maddi imkanının olduğunu deyirsiniz. Amma buna baxmayaraq, çox çalışıb, təqaüd qazanmağa üstünlük vermisiniz. Ailənizə yük olmaq istəmirdiniz?

● Bəli. Bunu valideynlərim də deyirdi. Gecə-gündüz oxuyurdum. Düşünürəm ki, 18 yaşından sonra insan asılı olmamalı, öz ayaqları üzərində durmalıdır. Siz bu zaman qazandıqlarınızdan həzz ala bilərsiniz. Həmişə deyirdim ki, işləyib özümə maşın alacam. Bunu mənə valideynlərim də ala bilərdi. Amma icazə vermədim, çünki hər şeyi özüm öz gücümə əldə etmək istəyirəm. Öz hesabına oxumaq çox rahatdır. Amma təqaüd qazanmaq həqiqətən çətindir. Mən çətinliyi, zəhməti, əməyi sevirəm. Təqaüdüm də hər şeyimi qarşılayacaq. Bu, mənim üçün bu yaşda fəxrdir.

● Bəzi tələbələrə xaricə getmək imkansız gəlir. Həmyaşıdlarınıza nə demək istərdiniz?

● Həqiqətən istəyirlərsə, bacara bilərlər. Düzdür, bəzən ailələr buna imkan yaratmır, narahat olurlar. Amma ailənizi də idarə etmək sizin əlinizdədir. Mənim də valideynlərim əvvəllər qarşı idi. Mən onları inandırdım. Həqiqətən çox çalışan insanın qarşısını kəsmək mümkün deyil. Valideynlərimizin həyatımızda rolu böyükdür, amma bizim də onların həyatındakı rolumuz danılmazdır. Valideynlərinizi özünüz tanıyırsınız. Onların xarakterinə uyğun hərəkət edə bilərsiniz.

Daha çox kəndlərdə RAST GƏLİNƏN FƏSAD

Bu gün cəmiyyətimizi narahat edən problemlərdən biri rəsmi nikahda olmayan qadınlar tərəfindən uşaqların dünyaya gətirilməsidir. Belə halların baş verməsinin səbəblərindən biri də məhz erkən nikahlar və uşaq evliliklərdir.

KÖNÜL CƏFƏRLİ

Dövlət Statistika Komitəsinin 2022-ci il üzrə açıqladığı rəqəmlərə əsasən, Azərbaycanda dünyaya gələn uşaqların 15 faizi (18.814 uşaq) rəsmi nikahda olmayan qadınlar tərəfindən dünyaya gətirilib. Rəsmi nikahda olmayan qadınlar tərəfindən dünyaya gətirilən uşaqların 62 faizi isə kəndlərdə doğulub. Bu rəqəmlərdən aydın olur ki, xüsusilə kənd yerlərində evlənən cütlüklərin əhəmiyyətli hissəsi rəsmi nikaha daxil olmur. Bəzən bu uşaqlar heç valideynlərinin soyadını da ala bilmirlər. Bu isə gələcəkdə o uşaqların həyatına, cəmiyyətə atılarkən şəxsi inkişafına ciddi maneələr yaradır.

Ailə Məcəlləsində nikah yaşı həm qızlar, həm də oğlanlar üçün 18 yaş olaraq təyin edilib. İstisna hallarda, üzrlü səbəblər olduqda nikah yaşı bir ildən çox olmayaraq azaldıla bilər. Digər bütün hallarda qanuna əsasən, 18 yaşadək bağlanan nikah erkən nikah sayılır. Bəs niyə kənd-lərdə nikahdankənar dünyaya gələn uşaqlar çoxluq təşkil edir?

Kamilə Əliyeva

16 YAŞDA ANA OLANLARIN SAYI AZALIB

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin müdir müavini Kamilə Əliyeva deyir ki, ölkəmizdə erkən nikah və uşaq evlilikləri aparılan işlər nəticəsində əvvəlki illərlə müqayisədə azalıb: "16 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 2015-ci ildə 175, 2021-ci ildə isə 84 olub. Ədliyyə Nazirliyindən alınan son məlumata əsasən, 2022-ci ildə qeydiyyata alınmış 16 yaşadək analar tərəfindən doğulan uşaqların sayı azalaraq 18 körpə təşkil edib. 16 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 2015-ci ildəki 604-dən 2021-ci ildə 341-dək, 17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 2015-ci ildəki 2116-dan 2021-ci ildə 1225-dək, 18 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 2015-ci ildəki 5845-dən 2021-ci ildə 1225-dək azalıb".

UŞAQ EVLİLİYİNİN MƏSULİYYƏTİ VALİDEYNLƏRİN ÜZƏRİNƏ DÜŞÜR

K.Əliyevanın sözlərinə görə, erkən nikah problemi digər ölkələrdə olduğu kimi bizim ölkəmizdə də hələ ki, mövcuddur və narahatlıq doğuran bir məsələdir: "Belə halların baş verməsinin məsuliyyəti valideynlərin üzərinə düşür. Eyni zamanda, qızların təhsil aldığı məktəblərin müəllim heyəti də təhsildən yayınma olduğu halda dərhal aidiyyəti qurumlara məlumat verməlidirlər. Aidiyyəti qurumlar təhlükəli vəziyyətdə olan ailələri nəzarətə götürməli, belə ailələrlə profilaktik işlər aparmalıdırlar".

KƏNDLƏRDƏ RƏSMİ NİKAHSIZ AİLƏ MODELİ

K.Əliyeva bildirir ki, regionlarda, xüsusilə də kəndlərdə gənclər rəsmi nikaha daxil olmadan ailə qururlar. Bu da gələcəkdə ailədə hər hansı problem yaranarsa, ana və uşaqların hüquqlarının müdafiəsində müəyyən çətinliklər yaradır.

Nikahdankənar və tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarının, o cümlədən erkən nikahın mənfi nəticələrinin araşdırılması məqsədilə komitə tərəfindən təhlillər hazırlanır.

Qeyd edək ki, Cinayət Məcəlləsinə əsasən, nikah yaşına çatmayan qızları nikaha məcbur etməyə görə dörd ilədək azadlıqdan məhrum etmə cəzası müəyyən edilib.

Cinayət Məcəlləsinin "Qadını nikaha məcbur etmə" maddəsinə əlavə olaraq nikah yaşına çatmayan qızları nikaha məcbur etməyə görə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək azadlıqdan məhrum etmə cəzası müəyyən edilib.



NİKAH YAŞININ BİR İL AZALDILMASININ FƏSADLARI

Komitə rəsmisi bildirib ki, BMT-nin tövsiyələrini nəzərə alaraq, eləcə də Ailə Məcəlləsinə əsasən, üzrlü səbəblər olduqda nikah yaşının istisna hallarda bir il azaldılması qızların qaçırılmasına, ümumilikdə erkən nikahlara şərait yaradır: "Məhz bu səbəblə Dövlət Komitəsi tərəfindən istisna halların ləğv edilməsi ilə bağlı aidiyyəti qurumlara təklif təqdim edilib. Hazırda bu məsələyə baxılır". Erkən nikahların və uşaq nikahlarının aşkarlanması məqsədilə məlumatlar Dövlət Komitəsinə və komitənin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə daxil olur: "Bu zaman komitə və ya mərkəz tərəfindən yerli icra hakimiyyətlərinin nümayəndələrinin və polisin iştirakı ilə ailələrə səfərlər təşkil edilir, bu cür nikahlara görə qanunvericilikdə nəzərdə tutulan məsuliyyət izah olunur, belə halların qarşısının alınması istiqamətində müvafiq tədbirlər görülür".

"BİZİM KƏNDDƏ DƏ ÇOXUNUN RƏSMİ NİKAHI YOX İDİ"

Sosioloq Əhməd Qəşəmoğlu isə deyir ki, 15 faiz uşağın nikahdan kənar doğulmasının iki səbəbi var: "Birinci səbəb odur ki, son zamanlar bu mövzuya ictimai qınaq azalıb. Hər şey normal qəbul edilir. Bu səbəbdən də müəyyən yerlərdə insanlar rəsmi nikaha əhəmiyyət vermirlər. Kənd yerlərində bu məqamın üstünlük təşkil etməsi isə molla nikahı deyilən, dini kəbin kəsilməklə ailə qurulmasıdır. Mən gənc olanda bizim kənddə hər kəsin dini kəbini olsa da, rəsmi nikahı yox idi. Bu, çox ciddi xaos yaratmışdı. Bir dövrdən sonra artıq insanları rəsmi nikaha vadar edirdilər. Bəzi sənədləşmə məsələləri buna məcburiyyət yaradırdı. Amma bu dəstəklənməyən adət-ənənələr davam etməkdədir. Kənd yerlərində rəsmi nikah olmadan birgə yaşayanlara pis baxmırlar. Mən deyərdim ki, şəhərlə müqayisədə kənd yerlərində ictimai qınaq güclüdür. Amma eyni zamanda rəsmi nikaha əhəmiyyət verməyən adamlar da çoxdur. Kənd camaatı düşünür ki, kəbin oldusa, onlar artıq ailədir".



Əhməd Qəşəmoğlu

PROBLEM PUL YIĞIMINDA DEYİL, İDARƏETMƏDƏDİR

MTK-lar sakinlərdən, sakinlər də MTK-lardan narazadırlar. MTK pulların ödənilməməsindən şikayətlənir, sakinlər isə toplanan pulların lazımi qaydada xərclənməməsindən. Belə bir durumda sakinlərdən yığılan xidmət haqlarının nağdsız qaydada toplanması barədə qanun layihəsi hazırlanıb.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yeni tikili binalarda liftlərin, blokun qapılarının üzərində A4 vərəqində sakinlərə kommunalı ödəmədikləri halda liftin işləməyəcəyi, binaya verilən işığın dayandırılacağı ilə bağlı xəbərdarlıqlar tez-tez edilir. Hətta bəzi hallarda xərclənən pulların "hesabatı" da A4 vərəqində qeyd olunub, qapıya yapışdırılır. Amma yenə də Mənzil Tikinti Kooperativləri (MTK) sakinlərdən narazıdır, sakinlər də MTK-lardan. MTK pulların ödənilməməsindən şikayətlənir, sakinlər toplanan pulların lazımi qaydada xərclənməməsindən. Nəticədə çoxmənzilli binalarda "kommunal pulu" ilə bağlı problemlər həll olmur ki, olmur...

Ötən günlərdə MTK-ların binalarda sakinlərdən xidmət haqlarını nağdsız qaydada toplaması barədə qanun layihəsi hazırlanıb. Milli Məclisin iclasında iqtisadiyyat nazirinin müavini Elnur Əliyev deyib ki, artıq layihə dövlət qurumlarına təqdim edilib.

Maraqlıdır, kommunal ödənişlərin nağdsız qaydada toplanması uzun illərdir həlli tapılmayan problemə çarə ola bilərmi?

BU, VƏTƏNDAŞIN PROBLEMİNİ HƏLL ETMİR

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyir ki, pulların hansı qaydada ödənilməsinin mövcud problemlərlə əlaqəsi yoxdur: "Təkcə Bakı və Abşeron ərazisində 2000-dən artıq yeni tikilmiş yaşayış binası vətəndaşların istifadəsinə verilib. O binalarda işləyən xadimələrin, mühafizənin, digər işçi heyətinin və lift xərclərinin qarşılanması üçün mənzil sahiblərindən kommunal pulları yığılmalıdır. Bu, tək Azərbaycanda deyil, dünyanın hər yerində belədir. Hətta digər ölkələrdə əgər binalar fərdi şəkildə idarə olunursa, kommunal xərclər daha bahadır. Kommunal pulların nağd, yaxud nağdsız şəkildə ödənməsi vətəndaşın problemini həll etmir. Çünki vətəndaş hər iki halda bu pulu ödəyir".

Elnur Fərzəliyev

BİR ŞƏHƏRDƏ ÜÇ YANAŞI İDARƏETMƏ SİSTEMİ

Mütəxəssis düşünür ki, MTK ilə vətəndaş arasındakı problemin kökü ödənilən pulda deyil, idarəetmədədir: "Sakinlər toplaşaraq Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətini yaratmalı, idarəetməni də özləri həyata keçirməlidirlər. Bakıda eyni ərazidə yeni tikili çoxmənzilli bina, tam yanında köhnə yaşayış binası, onun da yanında fərdi həyət evlərindən ibarət yaşayış massivləri var. Yeni tikililəri komendantlar, köhnələri mənzil istismar idarələri, fərdi həyət evlərinin bir hissəsini isə bələdiyyələr idarə edir. Bir şəhərdə üç yanaşı idarəetmə sistemi var və heç biri effektiv deyil. MTK vətəndaşlardan kommunal pulu yığır, amma sadəcə öz həyətini təmizləyir, sakinlər köhnə binanın həyətində avtomobillərini saxlayırlar, hansı ki, o əraziləri də mənzil istismar idarələri təmizləyir və s. İdarəetmə düzəlməsə, pulların hansı formada yığılmasının keyfiyyətə təsiri olmayacaq. Narazılıq yenə olduğu kimi qalacaq".

VAHİD İDARƏETMƏ SİSTEMİ QURULMALIDIR

Mütəxəssisin sözlərinə görə, vahid idarəetmə sistemi qurmaq lazımdır: "Bu sistem qurulmasa, əks halda binaların köhnəlməsi prosesi sürətlənəcək. MTK-ların yığdığı kommunal pulları yalnız həmin ay istifadə üçün bəs edir. Əksər çoxmənzilli binaların artıq dam örtüklərinin təzələnməsinə ehtiyac var, liftlər köhnəlib, fasad boyaları bərbad vəziyyətdədir. Çünki onların ümumi maddi texniki bazaları yoxdur. Yığılan pulların hər birindən bazaya pul yönəlməlidir ki, gələcəkdə lazım olan xərclər qarşılansın".

Vergi mütəxəssisi Anar Bayramov deyir ki, MTK-ya ödənilən xidmət haqlarının nağdsız qaydada olması təklifi kölgə iqtisadiyyatının aradan qaldırılması, dövriyyələrin dürüstləşdirilməsi məqsədi daşıyır: "MTK-lar sakinlərdən aldığı xidmət haqlarından vergi ödəməlidirlər. Amma ödənişləri nağd qaydada aldıqları üçün həmin dövriyyələri gizlədir, bəyan etmir, vergilərini də ödəmirlər. Mənzil tikinti sektoru qeyri-neft sektoru arasında özünəməxsus dövriyyəsi olan sahələrdən biridir. Bakı şəhərində MTK-ların aldıqları aylıq xidmət haqları heç də az məbləğ deyil. Bu yığılmalar nağd şəkildə olduğu üçün dövlət büdcəsindən kifayət qədər pul yayındırılır. Əgər bu qanun qüvvəyə minərsə, əhali artıq ödənişlərini nağdsız qaydada ödəyəcək və həmin MTK-lar dövriyyələrini gizlədə bilməyəcək, vergilərini də ödəyəcəklər".

Anar Bayramov

SAKİNLƏR ÖDƏNİŞLƏRİNİ MƏCBURİ QAYDADA EDƏCƏKLƏR

Vergi mütəxəssisi də ödənişlərin nağdsız olmasının bu sahədəki problemlərin həlli olmayacağını düşünür: "Burada günah tək MTK-da deyil. Sakinlərin əksəriyyəti də ödənişləri etmək istəmirlər. MTK-nın təyin etdiyi məsul şəxs sakinlərdən xidmət haqlarını almaqda çətinlik çəkir. Pulu almaq üçün müəyyən vasitələrlə təzyiq göstərirlər. Hələ komendant tərəfindən bu ödənişin bank hesabına köçürülməsi şərti qoyulsa, ümumiyyətlə banka gedən olmayacaq. Amma qanun qüvvəyə minərsə, artıq bu, icbari xarakter daşıyacaq və sakinlər məcburi qaydada ödənişlərini edəcəklər".

BİNA SAKİNLƏRİ MTK-LARA ETİBAR ETMİRLƏR

İqtisadçı ekspert Rauf Qarayev isə deyir ki, MTK-da ödənişlərin nağdsız qaydada ödənilməsi fikri müsbətdir. Mütəxəssisin sözlərinə görə, hazırda MTK-lar hüquqi boşluqlardan istifadə edib vətəndaşlardan xeyir güdmək üçün çalışırlar: "Qanun qüvvəyə minsə, nağdsız ödənişlə MTK-lara nəzarət asanlaşacaq. İnsanlar var ki, nəinki kommunal, aldıqları evlərin ödənişini etsələr də, mənzillə təmin olunmayıblar. Bu faktlara görə bina sakinləri MTK-lara etibar etmir, ödədikləri vəsaitin düzgün xərclənəcəyini düşünmürlər. Bu səbəbdən də "kommunal pulu" problemləri hələ də davam edir. MTK-lara nəzarətin gücləndirilməsi həll yolu ola bilər".

Rauf Qarayev

STANDARTLAR QƏBUL OLUNDU, QALDI TƏTBİQİ...

Bazarda uşaqlar üçün rəngi çıxan, qoxusu gələn oyuncaqlar var. Oyuncaqların istehsalında əsasən plastik kütlədən, rənglərdən istifadə olunur. Rəngləyici materialların tərkibində isə ağır metallar, qurğuşunlar olur. Bu da oyuncaqlar vasitəsilə kiçikyaşlı uşaqlara keçə bilir.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən uşaq oyuncaqları ilə bağlı yeni dövlət standartı qəbul edilib. Bu qərar oyuncaq bazarında hansı dəyişikliklərə səbəb olacaq?

"İRAN İSTEHSALI OLAN MƏHSULLARI SATMIRIQ"

Oyuncaq satışı ilə məşğul olan Səyyah İsmayılovun sözlərinə görə, bəzən elə oyuncaqlar olur ki, rəngi çıxır. Amma onlar belə məhsulları satmırlar: "Oyuncaqları əsasən Çindən alırıq. Bu ölkədən gətirilən oyuncaqların keyfiyyəti çox yaxşıdır. Həm də oradakı malların heç birində toksik maddələr yoxdur. Ancaq İran məhsullarının tərkibində toksik maddələr çoxdur. Məsələn, elə oyuncaq var ki, əlini vurursan, sonra yemək zamanı səhvən əlini ağzına aparanda insanda müəyyən halsızlıqlar, başağrıları, ürəkbulanmaları başlayır. Bu, hələ böyük insan üçün olan simptomlardır, uşaqlar üçün isə daha təhlükəlidir. Ona görə də İran istehsalı olan məhsulları satmırıq. Əsasən taxta oyuncaqlara üstünlük veririk. Plastiklərdən isə Çin istehsalı olan oyuncaqlar daha keyfiyyətlidir, nəinki İran məhsulları. Çin istehsalçıları əvvəlcə oyuncaqların videosunu yayırlar. Çinin böyük şirkətlərinin səhifələri var və hansı oyuncağı istəsəniz haqqında video tapmaq mümkündür. Bu da onları daha güvənilir edir".

BU OYUNCAQLARA QADAĞA QOYULMALIDIR

Satıcının fikrincə, yerli oyuncaqlarımız daha keyfiyyətli idi, lakin baha olduğu üçün onları hər kəs sata bilmir: "Oyuncaq bazarında daha çox Çin məhsulları üstünlük təşkil edir. İran məhsulları o qədər də güclü yayılmayıb. Özümüzün yerli istehsalımız var idi. Sumqayıtda istehsal olunurdu. Hətta çox keyfiyyətli idi. Hazırda bilmirəm fəaliyyət göstərir ya yox, amma biz artıq satmırıq. Yeni qaydalardan sonra İrandan gələn oyuncaqlara qadağalar qoyulsa, daha yaxşıdır. Bu halda bazardakı oyuncaqlar daha təhlükəsiz olar".

OYUNCAQLARI NECƏ YOXLAMALI?

E.Hüseynov qeyd edir ki, valideynlər özləri də oyuncaq alarkən diqqətli olmalıdırlar: "Bazarda uşaqlar üçün rəngi çıxan, qoxusu gələn oyuncaqlar var. Oyuncaqların istehsalında əsasən plastik kütlədən, rənglərdən istifadə olunur. Rəngləyici materialların tərkibində isə ağır metallar, qurğuşunlar olur. Bu da oyuncaqlar vasitəsilə kiçikyaşlı uşaqlara keçə bilir. Həmişə deyirik ki, oyuncaq alan zaman ağ tənzifi isladıb oyuncağa sürtmək lazımdır. Əgər rəngi çıxırsa, belə oyuncağı almaqdan uzaqlaşın. Mağazaya daxil olduqda oradan pis qoxu gəlirsə, belə oyuncaqlardan uzaq olun. Dartdıqda tükləri qopan, hissələri tökülən oyuncaqlar varsa, onları almaqdan imtina edin".

"ƏVVƏLKİ KİMİ FƏALİYYƏT GÖSTƏRSƏLƏR..."

Ekspert bildirir ki, əgər güclü nəzarət mexanizmi olarsa, oyuncaq bazarında irəliləyiş mümkündür: "Bu standartların ümumi oyuncaqlara şamil olunması üçün ayrıca texniki sənəd qəbul ediləcək. Həmin sənəddə bütün oyuncaqların təhlükəsizliyinə təminat verən tələblər öz əksini tapacaq. Yəqin ki, bunun üçün dövlət orqanları da müəyyənləşdiriləcək. Əgər effektli nəzarət mexanizmi həyata keçirilərsə, istehlakçı qismində uşaqların mənafeyi önə çəkilərsə, yoxlayan dövlət orqanları nəzarətdə fəal iştirak edərsə, ölkədə oyuncaqların təhlükəsizliyi təmin olunar. Əks halda, biznes qurumları azad bazar iqtisadiyyatının prinsiplərindən sui-istifadə edib əvvəlki kimi fəaliyyət göstərəcək, ciddi bir dəyişiklik baş verməyəcək".

Eyyub Hüseynov

OYUNCAQ UŞAQDA FƏSAD YARATMAMALIDIR

Pediatr Gülnar Abdullayeva deyir ki, oyuncaq istehsalında bəzi məqamlara diqqət olunmalıdır: "Əgər oyuncaq doğru-düzgün istehsal edilməyibsə, onun kimyəvi tərkibi uşaqlarda allergiya yarada bilər. Oyuncaq istehsal olunanda diqqət etmək lazımdır ki, uşağın yuxarı tənəffüs yollarının allergiyasını oyadacaq, dərisini qıcıqlandıracaq kimyəvi maddələrdən istifadə edilməsin. Yəni allergik uşaqlar həmin oyuncaqlara toxunan zaman heç bir fəsad yaşamamalıdırlar".

Gülnar Abdullayeva

"QƏRAR LƏĞV EDİLDİ, NƏZARƏT İTDİ"

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, 2021-ci ilə qədər bazarda satılan oyuncaqlara ciddi nəzarət olunurdu: "Oyuncaqlar sahəsində illərdir problemlər yaşanır. Əvvəllər Nazirlər Kabinetinin 343 saylı qərarı var idi. Bu qərar təhlükəsizliyi təmin olunan malların siyahısı ilə bağlı idi. Orada oyuncaqların əmtəə bazarına daxil olmazdan öncə yoxlanılması nəzərdə tutulurdu. 2021-ci ildə bu qərar ləğv edildi. Bundan sonra Çindən və digər ölkələrdən respublikamıza təhlükəli oyuncaqlar daxil olmağa başladı".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2756
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

AZERCONNECT şirkəti nüfuzlu Stevie® mükafatına layiq görülüb

Azərbaycanda İKT və yüksək texnologiyalar sahəsində lider şirkətlərdən biri olan Azerconnect icra etdiyi innovativ layihələrə görə bir neçə kateqoriya üzrə nüfuzlu Stevie® mükafatına layiq görülüb. Belə ki, Azerconnect həyata keçirdiyi "Inspire.Lead.Create:Women Leadership" proqramı ilə Müxtəliflik və inklüzivlikdə nailiyyətə görə Gümüş, "FLEXcellence:Hybrid Working" proqramı ilə İşçi heyəti üçün məsafədən iş rejiminin idarə edilməsində nailiyyətə görə Gümüş, eləcə də "Hybrid Leadership" proqramı ilə Qarışıq öyrənmənin ən yaxşı istifadəsi üzrə Bürünc mükafatlarını əldə edib. Bu mükafatlar insan resursları nailiyyəti kateqoriyasında Ən yaxşı işəgötürənlər (Stevie® Awards for Great Employers) üçün səkkizinci illik Stevie® Mükafatları çərçivəsində təqdim olunub. "Stevie® Awards for Great Employers" dünyada ən yaxşı işəgötürənlərə təqdim olunan beynəlxalq mükafat proqramıdır. Qeyd edək ki, "Stevie® Awards for Great Employers"ın məqsədi dünyanın ən yaxşı işəgötürənləri və mükəmməl iş yerləri yaratmağa və idarə etməyə kömək edən insan resursları mütəxəssislərinin, komandaların, nailiyyətlərin və insan resursları ilə əlaqəli məhsul və təchizatçıların tanıdılmasıdır. Azerconnect şirkətinin icra etdiyi proqramlarla iki Gümüş və bir Bürünc mükafata layiq görülməsi şirkətin inklüziv təbiətə malik olduğunu sübut edərək öz əməkdaşlarını dəyərləndirməyə, müxtəlifliyi təşviq etməyə, məsafədən işin effektiv idarə olunmasına, eləcə də işçi qüvvəsində peşəkar inkişafı dəstəkləməyə sadiqliyini nümayiş etdirir.

STEVİE® AWARDS HAQQINDA:

Stevie® Awards səkkiz proqram çərçivəsində təqdim olunur. Beynəlxalq müsabiqəyə hər il 70-dən çox ölkədən 12000-dən çox müraciət göndərilir. Bütün növ və miqyasda təşkilatları və oradakı peşəkarların töhfələrini tanımaqla Stevie® dünya üzrə iş yerində üstün nailiyyətləri qiymətləndirir.

"SOCAR Könüllüləri" böyük könüllü ailəsinin üzvünə çevrilib

Bu il müsabiqə əsasında qəbul edilən "SOCAR Könüllüləri"nin sayı 60-dan 100-ə yüksəldilib. 100 rəqəminin seçilməsi ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiram əlaməti daşıyır.

"SOCAR Könüllüləri" artıq böyük könüllü ailəsinin bir üzvünə çevrilib. "Report"un Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) istinadən verdiyi məlumata görə, bunu "Heydər Əliyev İli" çərçivəsində "SOCAR Könüllüləri" qrupuna 100 tələbənin qəbul olunması ilə əlaqədar keçirilən tədbirdə SOCAR-ın prezidenti Rövşən Nəcəf bildirib.

Tədbirdə açılış nitqi ilə çıxış edən R.Nəcəf ölkəmizdə könüllülük hərəkatının Prezident İlham Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətinin əsas komponentlərindən biri olduğunu, bu xüsusda, könüllülük fəaliyyətinin tənzimlənməsi üçün "Könüllü fəaliyyət haqqında" qanunun qəbul olduğunu diqqətə çatdırıb.

R.Nəcəf könüllülük fəaliyyətinin bu gün gənc nəslə praktiki biliklərin qazanılmasına, seçdikləri sahənin mənimsənilməsinə dəstək olduğunu bildirib.

SOCAR-ın prezidenti ötən bir il ərzində könüllülərin öz şəxsi inkişaflarına və peşəkar fəaliyyətlərinə mühüm töhfə verəcək nailiyyətlər əldə etdiklərini qeyd edib.

"SOCAR KÖNÜLLÜLƏRİ"NİN SAYI 100-Ə ÇATDIRILIB

Bu il müsabiqə əsasında qəbul edilən "SOCAR Könüllüləri"nin sayının 60-dan 100-ə yüksəldildiyini bildirən R.Nəcəf simvolik 100 rəqəminin seçilməsinin ulu öndərin əziz xatirəsinə ehtiram əlaməti olduğunu vurğulayıb və "SOCAR Könüllüləri" sırasına yeni qoşulan könüllülərə müvəffəqiyyətlər arzulayıb. Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi ilə tanış olublar.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. "SOCAR Könüllüləri" Murad Əliyev və Ülfət İbrahimli könüllülərin fəaliyyəti ilə bağlı təqdimatla çıxış edib, göstərilən yüksək diqqətə görə qrup adından SOCAR-a minnətdarlıqlarını bildiriblər. Sonda "SOCAR Könüllüləri"nin fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib.

"Nar"dan yeni abunəçilər üçün xüsusi endirim:
FULL 6 YARI QİYMƏTƏ!

İndi yeni abunəçilər "Nar"-ın ən çox seçilən tariflərindən biri olan FULL 6-nı yarı qiymətə əldə edə bilərlər. Tarifə 1 illik abunə olmaq istəyənlər sadəcə 6 ayın abunə haqqını ödəməklə 50% güzəşt əldə edəcəklər.

Həmçinin 3 və 6 aylıq abunə olmaq istəyənlər də endirimdən istifadə edib nəzərdə tutulan xərclərinə müvafiq olaraq 30% və 40% qənaət edəcəklər.

Xüsusi endirimli FULL 6 tarifi abunəçilərə 120 dəqiqə danışıq, 600 MB internet və əlavə olaraq sosial şəbəkələrdə yazışmaq üçün 1GB internet trafiki təklif edir. Tarifə qoşulmaq üçün "Nar"ın satış və xidmət mərkəzlərində yeni nömrə əldə etmək kifayətdir.

Endirimli FULL 6 tarifi çərçivəsində təqdim olunan bonusların qalığı da digər bütün FULL tariflərində olduğu kimi yanmır və növbəti aylara keçir.

FULL 6 haqqında daha ətraflı: nar.az/full-6/

ŞÖHRƏTİ TARİX OLAN QUBA ALMASI

Şimal bölgəsində təxminən 15-16 min hektar damcı suvarma sistemi ilə suvarılan, müasir texnologiya ilə işləyən şirkət bağları mövcuddur. Onların yetişdirdiyi almaların keyfiyyəti, standartı yüksəkdir. Fermerlərin yetişdirdiyi almalara isə tələbat yoxdur.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

"Qubanın ağ alması, yeməyə var alması... Qubadan alma aldım, yarıma yola saldım..."

Vaxtilə adına mahnılar bəstələnən, yara ən gözəl hədiyyə sayılan Quba alması dardadır. Fermerlər almanın keyfiyyətsizliyindən, satılmamasından, dəyərinin azalmasından şikayətlənir, mütəxəssislər isə baxımından... Maraqlıdır, problem nədədir? Dünyaya səs salan Quba alması artıq şöhrətini itirirmi?

KASIB FERMERLƏR ALMANI SATA BİLMİRLƏR

Fermer Rəşad Nəcəfinin Qubada bir hektar alma bağı var. Deyir ki, meyvə yığımından sonra, il ərzində qoyduqları xərci götürə bilmirlər. Bu səbəbdən alma əkimindən imtina etmək məcburiyyətində qalırlar: "Meyvələrin, xüsusilə də Quba almasının qiymətinin düşməsinə Rusiya-Ukrayna müharibəsi və rublun kəskin surətdə dəyər itirməsi ciddi təsir etdi. Son illərdə şimal bölgəsində şirkət bağlarının çoxalması da sadə, kasıb fermerlərin satışına ciddi mane olur".

Məlumdur ki, meyvə bağlarından davamlı olaraq bol və keyfiyyətli məhsulun əldə olunması üçün mövsümə uyğun lazımi aqrotexniki tədbirlərin görülməsi mütləqdir. Fermerin sözlərinə görə, dərman qiymətlərinin baha olması fermerlərin vəziyyətini çətinləşdirir: "Meyvələri zərərvericilərdən qorumaq üçün istifadə olunan dərmanın qiyməti hədsiz bahadır. Təsəvvür edin, il ərzində meyvə bağını ən az 20 dəfə dərmanlamaq tələb olunur. Biz fermerlərin o qədər dərmanı almağa imkanımız yoxdur. Bunu etsək belə, sərf etdiyimiz məbləğ satdığımız məhsulun qiymətindən də çox olur. Çünki tək dərman deyil, bunun budaması, gübrəsi, yığımına tələb olunan xərc də var. Bu işləri normal görmək lazımdır ki, vaxtında yaxşı da məhsul götürə biləsən".

Rəşad Nəcəfi

Rəşad Nəcəfi hazırda alma bağlarından yığdıqları məhsullarını anbarda saxladığını bildirir. Deyir ki, yaxşı qiymətə alıcısı çıxsa, satacaq: "Saxlamaq da bizə sərf etmir, çünki çox qaldıqca, almanın suyu çəkilir, yüngülləşir və keyfiyyətdən düşür. Əvvəllər rahatlıqla Rusiya bazarına satırdıq. Hazırda bunu edə bilmirik. Ancaq daxili bazara satmaq məcburiyyətində qalırıq, o da tələbatımızı ödəmir. Çünki daxili bazarda məhsul çoxdur. Şirkət bağları daxili bazarı istənilən səviyyədə təmin edir".

QUBA CAMAATI ALMA BAĞLARINI LƏĞV EDİR?

Fermerin sözlərinə görə, Quba camaatı alma bağlarını ləğv edib, pula daha yaxşı satılan meyvə ilə əvəzləyirlər: "Texnika ilə dərman səpmək, hektarına görə 30 manatdır. Yığımı vaxtında bitirmək üçün əlavə işçi qüvvəsi lazım olur ki, yeşiyin biri 80 qəpikdən yığılır, 30 qəpik daşınma xərci, 40 manat isə traktorun həyətə gətirilməsidir. Camaat alma bağlarını ləğv edib, yerində tez yetişən, almadan da baha satılan meyvələr əkirlər. Əsasən, xarici sortlara üstünlük verirlər".

ALICILAR SƏHV YÖNLƏNDİRİLİRLƏR

Fermerlə söhbətimizdən məlum olur ki, dərmanların keyfiyyətsizliyi də kənd təsərrüfatı məhsullarında ciddi problem yaradır. Həmsöhbətimiz iddia edir ki, kənd təsərrüfatında istifadə edilən dərmanların tərkibindəki ana maddənin miqdarı aşağı olur: "Məsələn, dərman alırıq, üzərində yazılıb ki, 10 litr suya 100 qram dərman əlavə etmək lazımdır. Biz elə vaxt olur ki, hətta onun üzərində yazılan dozadan bir qat da artıq tökürük, lakin xeyri olmur. Dərman dükanlarına nəzarət yoxdur. Hər kəs ürəyi istəyən məhsulu gətirir, istədiyi kimi satır. Dərman dükanlarında işləyənlərin çoxunun aqronomluq ixtisası yoxdur. Bu səbəbdən, alıcılar səhv yönləndirilirlər".

KLASSİK SORTLAR YETİŞDİRİLMİR

Quba Regional Təlim Mərkəzinin aparıcı mütəxəssisi, biologiya elmləri üzrə fəlsəfə doktoru Mədət Qurbanov deyir ki, Quba alması ilə bağlı ən böyük problem artıq klassik sortların yetişdirilməməsidir: "Quba almasının keyfiyyəti düşməyib, sadəcə, şimal bölgəsində şirkət bağlarının çoxalması adi fermerlərin işinə təsir edib. Quba alması ilə bağlı ən böyük problem köhnə sortların artıq yetişdirilməməsidir. Ən əsası isə, yerli sortlar sıxışdırılır. Adi fermerlərin əkdiyi alma sahələrinin sayı azalıb. Şirkət bağları müasir standartlara cavab verir və yeni, müasir sortlar əkilir. Fermerlər də rəqabətdə bu bağlara uduzurlar".

Mədət Qurbanov

"NAPOLEON", "KİTAYKA", "ANTONOVKA"...

Mütəxəssis vurğulayır ki, indi yerli sortlarımızdan "cırhacı", "qızıləhmədi" qalıb: "Vaxtilə bizim bağlarda geniş yayılan "Napoleon" sortu olub, indi tapmaq mümkün deyil. Çünki bu almalar əmtəə qabiliyyətli deyil. Yəni bu gün bazarda "Napoleon", "kitayka", "antonovka" satılmadığına görə, əkilmir. Bu gün az-çox bağlarda "simirenko reneti" , "qızıləhmədi", "cırhacı", "sinab" sortlarını tapmaq mümkündür. Təəssüf ki, hazırda hamı bazar üçün işləyir. Bazarın da özünün qaydaları var. Ona görə də klassik alma sortları yetişdirilmir".

ALMA BAĞLARINI GİLAS BAĞLARI ƏVƏZLƏYİB

M.Qurbanovun sözlərinə görə, hazırda Qubada fermerlər gilas bağlarına üstünlük verirlər: "Fermerin müəyyən sahəsi olur. O sahəni becərməklə öz dolanışığını təmin etməyə məcburdur. O da hansı meyvə sortunu pula çevirə bilirsə, onu əkir. Məsələn, şimal bölgəsində gilas bağlarının sayı ildən-ilə artır. Çünki gilasa tələbat çoxdur.

Amma alma elə deyil. Şimal bölgəsində təxminən 15-16 min hektar damcı suvarma sistemi ilə suvarılan, müasir texnologiya ilə işləyən şirkət bağları mövcuddur. Onların yetişdirdiyi almaların keyfiyyəti, standartı yüksəkdir. Fermerlərin yetişdirdiyi almalara isə tələbat yoxdur. Ona görə də məcburdurlar ki, almanı çıxarsın, daha çox gəlir gətirən meyvəni əksin".

“KASPİ”NİN MÜXBİRİ DİYARBƏKİRDƏN - SUR MƏDƏNİYYƏT YOLU FESTİVALINDAN YAZIR

MESOPOTAMİYANIN QƏLBİNDƏN REPORTAJ

Diyarbəkir şəhəri Sur Mədəniyyət Yolu festivalının 9-cu və ən əhəmiyyətli dayanacaqlarından hesab olunur. Festival bölgənin tarixi və mədəniyyətini əks etdirən bir sıra sərgilər, tarixi məkanlar, muzeylər və digər özəlliklərlə tanış olmaq üçün yaxşı imkan oldu.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Türkiyə Mədəniyyət Yolu” (Türkiyə Kültür Yolu) festivalları bu il coğrafiyasını daha da genişləndirib. 100 gün boyunca ölkənin 11 şəhərini əhatə edəcək festival dünyanın ən uzunmüddətli mədəniyyət layihələrindən sayılır. Türkiyənin Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən festival günlərində ölkənin mədəni mirasını - tarixi bölgələrini, incəsənətini, turizmini, əl sənətini, qastronomiya və s. dəyərlərini qonaqlara və ölkə əhalisinə tanıtmaq məqsədilə silsilə tədbirlər keçirilir. Nazirlik bu festivalların bütün Anadoluya yayılmasını hədəfləyib.

FESTİVALIN 9-CU DAYANACAĞI

Diyarbəkir şəhəri festivalın 9-cu və ən əhəmiyyətli dayanacaqlarından hesab olunur. 14-22 oktyabr tarixlərində keçirilən Diyarbəkir Sur Mədəniyyət Yolu festivalında Türkiyənin ölkəmizdəki Səfirliyi və Türkiyə Mədəniyyət Nazirliyinin dəvəti ilə Azərbaycandan media nümayəndələrinin də qatılması bölgənin tarixi və mədəniyyətini əks etdirən bir sıra sərgilər, tarixi məkanlar, muzeylər, habelə bu şəhərin geyim mədəniyyəti, mətbəxi və s. ilə yaxından tanışlıq fürsəti yaratdı.

Diyarbəkirə - Mesopotamiyanın qəlbinə ziyarət edən qonaqlar sırasında xarici turistlərlə bərabər, ölkənin hər yerindən gələn sakinlər də çoxluq təşkil edir. Festival öncəsi “Diyarbəkir olaraq çox qonaqpərvərik, hər kəsi festivalda gözləyirik”, - demələri isə təkcə bayrama deyil, ümumən bölgəyə olan marağı artırıb. Yaxından-uzaqdan gələn sakinlər “Məmləkəti gəzməyə gəldik”, - deyə bizimlə söhbətlərində bildirirdilər. Son dərəcə sadə və mehriban Diyarbəkir əhalisi isə qonaqlarını özlərinə xas şirin ləhcə və sevgi ilə qarşılayırlar. Azərbaycandan olduğumuzu bilincə, “Azərbaycana salamımızı yetirin”, - deyirdilər.

SUR – SİVİLİZASİYANIN MƏRKƏZİ

Diyarbəkirdə Mədəniyyət Yolu Festivalı Sur rayonu ərazisindən başlayıb. Sur - Diyarbəkir qalasının içərisində yerləşən tarixi yer kimi məşhurdur, həm də sivilizasiyanın mərkəzidir. Rayon adını qala divarlarından götürüb. Festivalın da bu qədim divarlar arasında - “İçkale Muzey Kompleksi”ndə açılan sərgilərlə başlaması təsadüfi deyil. Sur rayonu artıq ikinci ildir keçirilən festivalın həyəcanını yaşayır. Festivalın bu məkanda ənənəvi olaraq keçirilməsi qərara alınıb. Diyarbəkir festivalı bölgənin tarixi və mədəniyyətini tanıtmaq, turizmin inkişafı üçün önəmli fürsətdir.

Ziyarətçilər festival günlərində tarixi Diyarbakır evləri, Diyarbəkir Arxeologiya muzeyi, Cahit Sıtkı Tarancı muzeyi, Assur Pravoslav Kilsəsinə aid Müqəddəs Məryəm kilsəsi, Həsən Paşa karvansarası, Süleyman peyğəmbərin məscidi, Məhəmməd peyğəmbərin 27 səhabəsinin türbələri, Nəbi Məscidi, Şeyx Məttar Məscidi və onun dördayaqlı minarəsi, Diyarbəkir Ulu Cami Məscidi və Diyarbəkir qalası, həmçinin çoxsaylı karvansaralar, mədrəsələr, çeşmələr və müxtəlif tarixi abidələrlə tanış olurlar.

8000 illik tarixi ilə dünyanın ən qədim bağlarından biri hesab edilən “Hevsel Bahçeleri”ni seyr etmək ayrıca zövqdür.

ƏL-CƏZARİNİN ƏSƏRLƏRİNİN SƏRGİSİ

Festival çərçivəsində İç Qala Artuqid Sarayında mühəndis Əl-Cəzarinin əsas əsərlərinin yer aldığı “Cəzarinin Fövqəladə Avtomobilləri Sərgisi” böyük maraqla qarşılanır. İstanbul Cəzari Muzeyinin istehsalı olan sərgidə mühəndisin 818 il əvvəl, 25 il çalışdığı sarayda hazırladığı robotların, maşınların surətləri yer alıb. Sərgidəki 11 obyekt arasında Əl-Cəzarinin mum heykəli, içki təklif edən avtomat, qayıqçı ilə su saatı, uşaqlarla dəstəmaz alan avtomat, öküzlü içki satışı aparatı, su qaldırma sistemi var. “Artuqilər dövründə uzun illər saray mühəndisi işləmiş məşhur islam alimi və kibernetika elminin banisi Əl-Cəzarinin əsərləri dərindən araşdırılıb. Əl-Cəzari həm islam dünyası, həm Diyarbəkir, həm də texnologiya dünyası üçün önəmli bir şəxsdir. Bu baxımdan sərgi festivalın ziyarətçiləri və diyarbəkirlilər üçün gözəl fürsətdir”, - deyə sərgi haqqında Özgur bəy məlumat verdi. Sərgidə həmçinin 2018-2022-ci illər arasında Artuqlu Sarayında aparılan qazıntıdan 35 fotoşəkil sərgilənir.

Festival ziyarətçiləri İçkale Muzeyi içərisində yerləşən Tematik Muzeydə Diyarbəkirin tarixindən bəhs edən nadir eksponatlarla tanış olurlar. Ekspozisiyalarda Diyarbəkirə islamın gəlişi, tarixi surlar, tarixi mədrəsələr, camilər, köhnə evlərin fotoları haqqında ətraflı məlumatlar yer alıb.

Diyarbəkir Arxeoloji Muzeyini ziyarət edənlər eramızdan əvvəl 7000-ci illərə (Orta Neolit Dövrü) aid əşyaların tapıldığı qazıntılarda arxeologiyaya da böyük maraq göstərirlər. Bu, Diyarbəkirin mərkəzində ilk yaşayış məskənlərinin başladığı yerdir və qədim yerlərdə Amida Höyük adlanır. Kurqan Diyarbəkirin inzibati mərkəzidir. Amida Kurqan 9 min il fasiləsiz olaraq inzibati mərkəz olub və dünyada yeganə nümunə olduğu üçün YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

FƏRQ YARADAN QADINLAR

Sur Sivilizasiya Yolu üzərindəki digər mühüm yer isə 17-ci əsrdə tikilmiş Mar Petyun Keldani kilsəsidir. 2015-2016-cı illərdə Sur rayonunda baş verən terror aktları nəticəsində böyük ziyan görən və yararsız hala düşən kilsə 2018-ci ildə bərpa edilib. Yeddi ildən sonra yenidən ibadətə hazır olan Keldani Katolik Kilsəsi “Fərq yaradan Qadınlar Foto Sərgisi” ilə ziyarətçiləri toplayır. Sərgi qadınların üstün olduqları sektorlarda yoxsulluq haqqında məlumatlılığı artırmaq məqsədi daşıyır və uğurlarına görə seçilən qadınlara diqqət çəkir.

Kilsələrin yaxınlığında yerləşən tarixi Paşa hamamında “Qoxu mədəniyyəti təqdimatı qədim zamanlardan bu günə” sərgisi keçirilir.

“GÖZÜMÜZ ÜSTÜNDƏ YERİNİZ VAR”

Diyarbəkir mədəniyyət festivalı həmçinin bölgənin əl işlərini, zəngin mətbəxi - ətri uzaqdan duyulan çörək və şirniyyatlarını, türk qəhvəsini, ləziz təamlarını dadmaq üçün əla fürsətdir.

“Şərqin göz bəbəyi”nin sakinləri qonaqları “Başımız üstündə yeriniz var”, - deyə yenidən dəvət edirlər...

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
21 OKTYABR ŞƏNBƏ 2023
www.kaspi.az

Bartomeu dönəmində oyunçular üçün dəyərindən artıq edilən transfer ödənişləri klubu çətin vəziyyətə salıb. Laporta isə vəziyyəti dəyişməyi bacarıb. Klub son zamanlar daha çox azad agentlərə üstünlük verir.

"BARSA" BORC GİRDABINDA

FAİQ TAHİROV

İspaniyanın "Barselona" klubu son illərdə çalxantılı dönəmlər yaşayıb. Pep Qvardiolanın baş məşqçi olduğu dövrdə - 2008-2012-ci illərdə qarşısıalınmaz olan Kataloniya təmsilçisi onun gedişindən sonra bir müddət stabilliyini qorusa da, get-gedə əvvəlki əzəmətini itirməyə başlayıb. 2015-ci ildən kluba rəhbərlik edən Xosep Mariya Bartomeunun zamanında isə vəziyyət ən pis həddə çatıb. Düzgün planlaşdırılmayan komanda quruculuğu, baş məşqçilərlə bağlı yanlış qərarlar, ümumi idarəçilik nöqsanları klubu açıq-aşkar uçuruma sürükləyirdi.

Nəhayət, 2021-ci ildə klubun əfsanəvi prezidenti Xuan Laporta postuna qayıtdı. Onun dönüşündən sonra "Barsa" ötən mövsüm İspaniya çempionu olmağı bacardı. Lakin problemlər hələ də qalır. Klubun sabiq prezidentləri - Sandro Rozel və Bartomeu tərəfindən İspaniya Kral Futbol Federasiyasının Hakimlər Komitəsinin keçmiş sədr müavini Xose Mariya Enrikes Neqreyraya ödənişlərin edilməsi ilə bağlı araşdırmalar davam etdirilir. Bundan başqa, klub hələ də borclarından yaxa qurtara bilməyib.

MİRALEM PYANİÇ

NORBERTO MURARA NETO

ÜMUMİ BORC 206 MİLYON AVRODUR

İspaniya mətbuatı bu yaxınlarda klubun borcları ilə bağlı yeni rəqəmlər açıqlayıb. Məlum olub ki, "qırmızı-göylər"in son illərdə 206 milyon avro borcu yığılıb. Artıq komandada olmayan Miralem Pyaniç, Neto kimi oyunçulara görə hələ də ödənişlər edilməlidir.

Kluba problem yaratmaq ehtimalı böyük olan proseslərdən biri Ferran Torresin "Mançester Siti"dən transferidir. 2020-ci ilin qışında İngiltərə Premyer Liqası klubundan 55 milyon avroya alınan oyunçu üçün ödəniş hissə-hissə edilməli idi. La Liqa klubu isə bu məbləğin yalnız ilkin 15 milyonunu ödəyə bilib. "Mançester Siti" məsələ ilə bağlı FIFA-ya müraciət etməyi düşünsə də, bu yay Joau Kanselunun icarəyə verilməsi ilə bağlı danışıqlar zamanı gözləməyə razılıq verib.

Robert Levandovski, Jül Kunde və Rafinya ilə bağlı da oxşar situasiya mövcuddur. Klub bu oyunçulara görə hələ də sabiq komandalarına borcludur.

SƏLƏFLƏRƏ QALAN "MİRAS"

Qəribə vəziyyətlərdən biri qapıçı Neto ilə bağlı yaranıb. Futbolçu 2019-cu ildə "Valensiya"dan alınıb. Hazırda o, bir ildən çoxdur İngiltərə "Bornmut"unda çıxış edir. Lakin "Barsa" braziliyalı qolkiper üçün dörd milyonluq son ödənişi etməyib. Bu, Bartomeudan səələflərinə qalan "miras"lardan biridir. Bir il sonra "Yuventus"la edilən Artur - Miralem Pyaniç dəyişikliyinə görə də "Barsa"nın ödənişləri qalıb. Düzdür, Turin klubuna hər hansı məbləğ çatmayacaq. Lakin oyunçunun keçmiş klubları - Fransada "Lion" və "Mets", İtaliyada "Roma", Pyaniçin ilk akademiyası olan "Şifflange-95"ə ödənilməli pullar var. "Barselona" uzunmüddətli müqavilə imzalamağı düşündüyü Frenki De Yonqa da borcludur. O, 2019-cu ildə "Ayaks"dan 75 milyona transfer edilib. Müqaviləyə əsasən, ödənişlər hər biri 15 milyon avro olmaqla beş ilə bölünüb.

"LA MASİYA" XİLASKAR ROLUNDA

Burada qeyd etmədiyimiz irili-xırdalı digər borclar da var. Eyni zamanda "Barsa"ya borclu olan klublar da az deyil. Antuan Qrizman, Memfis Depay, hətta Mauro İkardi üçün ödənişlər tamamlanmayıb.

Üstəlik, klub son illərdə bəzi lazımsız oyunçuları aşağı qiymətə, lakin yuxarı faizlə satmaqla çıxış yolu tapıb. Həmin oyunçuların inkişaf etmək perspektivi olduğundan "Barsa" növbəti satışlardan da pay gözləyir. Məsələn, "Barsa" Jan-Kler Todibonun mümkün satışından 20 faiz almaq hüququna malikdir. Hazırda onun üçün Fransa "Nitsa"sına çox böyük məbləğlərdə təkliflər var.

Klub üçün əsas xilaskar akademiyasıdır. "La Masiya"dan çıxan bir çox oyunçuya görə yetişdirmə haqqı borcları qalır. "Barselona" hətta sonuncu dəfə 2011-ci ildə U-19 komandasında çıxış edən Mauro İkardi üçün 126 min avro əldə edib. Məbləğ kiçik ola bilər. Lakin belə nümunələr çox olduğu üçün ümumi məbləğ kifayət qədər yüksəkdir.

Antuan Qrizman

Mauro İkardi

Memfis Depay

LAPORTANIN "QARANLIQ MÜNASİBƏTLƏRİ"

Bartomeu dönəmində oyunçular üçün dəyərindən artıq edilən transfer ödənişləri klubu çətin vəziyyətə salıb. Laporta isə vəziyyəti dəyişməyi bacarıb. Klub son zamanlar daha çox azad agentlərə üstünlük verir. Belədə onların keçmiş klublarına ödəniş etmək lazım olmur. Əlbəttə, bu halda da oyunçunun imza pulu və agentə edilən ödənişlər çoxalır. Məlumata görə, menecerlərə komissiya ödənişləri dörd dəfə artıb. Bu fakt klubda maliyyə maxinasiyaları olması ilə bağlı iddialara səbəb olub. Eyni zamanda Laportanın menecerlərlə "qaranlıq münasibətləri" birmənalı qarşılanmır. Lakin bu da faktdır ki, oyunçu transferlərində əsas rolu menecerlər oynayır. Laporta həmişə onlarla isti münasibət saxlamağa çalışıb. O, problemlər burulğanında olan "Barsa" götürüb və bu durumdan çıxmaq üçün ən yaxşı bələd olduğu yollara əl atır. Bəzən hər nə qədər sirli görünsə də...

Xuan Laporta